# Xocalılılar doğma yurdda səs verəcəklər




**Otuz iki ildən sonra yurd həsrətinə son qoyulmuş, Böyük Qayıdış çərçivəsində köç karvanlarına qoşularaq daimi məskunlaşmaq üçün doğma ocağa qayıtmış xocalılılar Milli Məclisə seçkilərə böyük ruh yüksəkliyi ilə hazırlaşırlar. Erməni işğalından azad edildikdən sonra qısa müddətdə yenidən qurulan şəhərdə hazırda seçki ab-havası hökm sürür.**

*(ardı 5-ci səhifədə)*

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 176 (30580) 18 avqust 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan Türkiyənin yanındadır!

**Avqustun 17-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyədə baş vermiş meşə yanğınlarının qarşısının alınması üçün Azərbaycanın lazımi dəstəyi göstərməyə hazır olmasının yüksək qiymətləndirildiyini deyərək, yanğınların söndürülməsində məhz "BE-200ÇS" amfibiya tipli təyyarəyə ehtiyacın yarandığını vurğulayıb və bu təyyarənin Azərbaycandan Türkiyəyə göndərilməsi ilə bağlı qərara görə minnətdarlığını bildirib. Türkiyə Prezidenti bunu ölkələrimiz arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin növbəti təzahürü kimi dəyərləndirib.

"BE-200ÇS" amfibiya tipli təyyarənin qısa zamanda Türkiyəyə göndəriləcəyini deyən dövlətimizin başçısı vurğulayıb ki, yanğınların qarşısının alınması ilə bağlı Azərbaycan qardaş ölkəyə istənilən əlavə dəstəyi göstərməyə hazırdır.

Dövlət başçıları Azərbaycanın və Türkiyənin hər zaman bir-birinin yanında olduqlarını, bir-birini daim dəstəklədiklərini qeyd ediblər.

Telefon söhbəti zamanı Azərbaycan–Türkiyə dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat xidməti***

# Avropanın Azərbaycan qazına tələbatı artır

## Ölkəmizdən "qoca qitə"yə 13 faiz çox "mavi yanacaq" nəql edilib



**Bu ilin yanvar–iyul ayları ərzində ölkəmizdə təbii qaz hasilatı 5 faiz artaraq, təxminən, 29,5 milyard kubmetr olub. Energetika Nazirliyinin yaydığı məlumata görə, "mavi yanacağ"ın 7,7 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"dən (AÇG), 16,5 milyard kubmetri "Şahdəniz"dən, 0,9 milyard kubmetri "Abşeron"dan, 4,4 milyard kubmetri isə SOCAR üzrə hasil edilib. Ötən ilin müvafiq dövrünə nisbətən qaz hasilatında, təqribən, 1,3 milyard kubmetr artım qeydə alınıb.**

Hesabat dövründə xaricə qaz satışı, təxminən, 14,7 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,7 faiz çoxdur. Cari ilin yanvar–iyul aylarında Türkiyəyə 5,8 milyard kubmetr, Avropaya 7,5 milyard kubmetr, Gürcüstana isə 1,4 milyard kubmetr qaz satılıb. Digər ölkələrə qaz satışı sabit qalsa da, Avropaya ixrac olunan qazın həcmi 13,6 faiz artıb. Qeyd edək ki, Türkiyəyə TANAP-la bu müddətdə 3,3 milyard kubmetr qaz nəql olunub.

*(ardı 7-ci səhifədə)*

## Atəşkəsi pozmaqla sülh prosesini öldürmək cəhdi

### *Klaar Ermənistana belə dəstək verir*

**Son günlər Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində, şərti sərhəddə atəşkəsin pozulması halları qeydə alınmaqdadır. Atəşkəsi pozan isə erməni tərəfidir. Hərçənd, rəsmi İrəvanın bununla bağlı açıqlamaları onu deməyə əsas verir ki, haylar, həmişə olduğu kimi, yenə də insidentlərə görə məsuliyyəti öz boyunlarından atırlar. Nəinki atırlar, eyni zamanda, Azərbaycanı günahlandırmaq yolunu tuturlar.**

Heç şübhəsiz, atəş səsləri hələ kövrək olan sülh prosesinə ciddi zərbədir. Ancaq nə rəsmi İrəvan, nə də onun xaricdəki havadarları buna əhəmiyyət verir. Onların məqsədləri başqadır: Birincisi, sülh gündəliyinə Ermənistanın xeyrinə dəyişiklik etmək, ikincisi Azərbaycana qarşı beynəlxalq miqyasda antipatiya yaratmaq. Əlbəttə, ikinci məqsədin özü də birinci üçün vasitədir. Daha böyük məqsəd isə erməni avantürizmini toxunulmaz saxlamaqdır ki, bunu daha çox istəyən xarici qüvvələrdir.

**(ardı 3-cü səhifədə)**

## Azərbaycan – Rusiya: Münasibətlər yüksələn xətlə davam edir



Səhifə ⇨ 4

## Şimal–Cənub Dəhlizi yenidən gündəmdədir



Səhifə ⇨ 5

## "İnsanlar anladılar ki, Baqrat Qarabağ klanının adi marionetkasıdır"



**Erməni apostol kilsəsinin Tavuş vilayəti üzrə yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan revanşist əməllərini davam etdirir. O, paytaxt İrəvanda, həmçinin ölkənin digər şəhər və rayonlarında görüşlər keçirir, tərəfdarlar toplamağa, payızda keçiriləcək etiraz aksiyalarında mütəşəkkilliyi təmin etməyə çalışır. Baqratın görüşlər zamanı səsləndirdiyi fikirlərlə tanışlıq zamanı onun xəstə təfəkkürlü erməni millətçiliyinin tipik nümayəndəsi olduğunu görmək mümkündür.**

**(ardı 4-cü səhifədə)**

# İndoneziya Respublikasının Prezidenti Zati-aliləri cənab Coko Vidodoya

**Hörmətli cənab Prezident!**

İndoneziya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Azərbaycan İndoneziya ilə münasibətlərin hərtərəfli inkişafına böyük əhəmiyyət verir. Ölkələrimiz arasında formalaşmış dostluq münasibətləri bir sıra istiqamətlər üzrə əməkdaşlığımız üçün əlverişli imkanlar açmışdır. "ASAN xidmət" modelinin ölkənizdə uğurla tətbiqi və bu sahədə fəal əməkdaşlığımız məmnunluq doğurur.

İnanıram ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-İndoneziya əlaqələri, ikitərəfli qaydada və çoxtərəfli müstəvilərdə birgə fəaliyyətimiz, o cümlədən Bakıda təşkil ediləcək COP29 çərçivəsində əməkdaşlığımız bundan sonra da uğurla davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost İndoneziya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 avqust 2024-cü il**

# Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçularına "general-mayor" ali hərbi rütbəsi verilsin:

polkovnik Bəhmən Rza oğlu Babayevə
polkovnik Əyyub Vəli oğlu Məmmədova
polkovnik Nəsib Tahir oğlu Mirzəyevə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 avqust 2024-cü il**

# "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında mineral ehtiyatlar və geologiya sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il iyulun 11-də İslamabad şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında mineral ehtiyatlar və geologiya sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 avqust 2024-cü il**

# "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Pakistan İslam Respublikasının Hüquq və Ədliyyə Nazirliyi arasında Əməkdaşlıq Memorandumu"nun təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il iyulun 11-də İslamabad şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Pakistan İslam Respublikasının Hüquq və Ədliyyə Nazirliyi arasında Əməkdaşlıq Memorandumu" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Əməkdaşlıq Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əməkdaşlıq Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 avqust 2024-cü il**

# "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının İnformasiya Texnologiyaları və Telekommunikasiya Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il iyulun 11-də İslamabad şəhərində imzalanmış "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının İnformasiya Texnologiyaları və Telekommunikasiya Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 avqust 2024-cü il**

# Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqların yerinə yetirilməsində fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

### 3-cü dərəcəli "Rəşadət" ordeni ilə

Abdullayev Cavid Mirhəmzə oğlu – general-leytenant
Musayev Elşad Nadir oğlu – polkovnik

### 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Məmmədov Faiq Həmzəağa oğlu – general-mayor

### 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Cəbrayılov Rahil Ağacəfər oğlu – polkovnik
Paşayev Emin Rauf oğlu – polkovnik
Şərifova Maya Kərəm qızı – polkovnik
Əliyev Rüfət Fizuli oğlu – gizir (ölümündən sonra)

### "Vətən uğrunda" medalı ilə

Əhmədov Zaur Bəhlul oğlu – 1-ci dərəcəli kapitan
Məmmədov Pərviz Şakir oğlu – 1-ci dərəcəli kapitan
Muradova Pərvanə Şamil qızı – polkovnik
Məmmədov Samir Əmirxan oğlu – polkovnik-leytenant
Abbasova Xəyalə Kamil qızı – mayor
Baxışlı Baxış Elşən oğlu – mayor (ölümündən sonra)
Əliyev Sədi Sadil oğlu – mayor
Bəşirov Turxan Ərəstun oğlu – kapitan
Cəfərov Məhəmməd Əmiraslan oğlu – kapitan

### "İgidliyə görə" medalı ilə

Hüseynov Zakir Əmir oğlu – polkovnik
Əmirov Vüsal Cəbrayıl oğlu – 2-ci dərəcəli kapitan
Quliyev Ramil Heydər oğlu – polkovnik-leytenant
Babayev Bəxtiyar Səyavuş oğlu – kapitan-leytenant
Fazilzadə Fazil Məhərrəm oğlu – kapitan-leytenant
Şirinov Əşrəf Namiq oğlu – baş leytenant

### "Hərbi xidmətlərə görə" medalı ilə

Cabbarov Bəxtibar Səyyaf oğlu – polkovnik
Məmmədov Zəka Nazim oğlu – 1-ci dərəcəli kapitan
Salamov Samir Akif oğlu – polkovnik
Abbasov Murad Abbas oğlu – polkovnik-leytenant
Abdullayev Xanlar Tofiq oğlu – 2-ci dərəcəli kapitan
Allahverdiyev Fikrət Kərəm oğlu – polkovnik-leytenant
Allahverdiyev Fikrət Məmməd oğlu – polkovnik-leytenant
Həsənov Samir Həsən oğlu – polkovnik-leytenant
Hüseynov İlqar Əslan oğlu – polkovnik-leytenant
İmanov Turxan Mamed oğlu – polkovnik-leytenant
Quliyev Mehman Nizaməddin oğlu – polkovnik-leytenant
Məmmədov Samir Güləhməd oğlu – polkovnik-leytenant
Müseyibov Hafiz Zakir oğlu – polkovnik-leytenant
Rzayev Elvin Vahid oğlu – polkovnik-leytenant
Salamov Zaur Rəhman oğlu – 2-ci dərəcəli kapitan
Veyisov Mehdi Hüseyn oğlu – polkovnik-leytenant
Abbaszadə Zəka Vəli oğlu – mayor
Abdulov Yaşar Kazım oğlu – mayor
Ağayev Muxtar Sənan oğlu – mayor
Baxışov Rahib Nüşrəvan oğlu – 3-cü dərəcəli kapitan
Əliyev Fərid Fəzayıl oğlu – mayor
İsmayılov Afiq Nadir oğlu – 3-cü dərəcəli kapitan
Məmmədova Günay Xaliq qızı – mayor
Mirzəyev Amil Habil oğlu – mayor
Muxtarov Elnur Eynullah oğlu – mayor
Mustafayev Allahverdi Cəlil oğlu – mayor
Nağızadə Elnur Fətulla oğlu – mayor
Nəbiyev Samir Ağanəbi oğlu – mayor
Nəcəfov Cəlal Qüdrət oğlu – mayor
Nəcəfzadə Ramiq Elçin oğlu – mayor
Sadıqov Şahin Mustafa oğlu – mayor
Sadıqov Teymuraz Surxay oğlu – mayor
Şahbazov Ülvi Sakit oğlu – mayor
Şirəliyev Rəşad Yaşar oğlu – mayor
Şirinzadə Emin Firuz oğlu – mayor
Altınbəyov Fuad Ənvəroviç – kapitan
Babayev Xalid Sərdar oğlu – kapitan
Bayramov Şəhriyar Azər oğlu – kapitan
Behbudov Anar Eyvaz oğlu – kapitan
Cəfərli Orxan Niyazi oğlu – kapitan
Cəfərov Sərxan İbrahim oğlu – kapitan
Dadaşova Gültac Vahid qızı – kapitan
Əhədov Zamiq Nazim oğlu – kapitan
Əhmədov Rauf Məmməd oğlu – kapitan
Əlicanlı Vahid Ələddin oğlu – kapitan
Əliyev Murtuzəli Mustafa oğlu – kapitan
Fərhadova Yeganə Ziyad qızı – kapitan
Hüseynli Orxan Elman oğlu – kapitan-leytenant
Hüseynov Şəmistan Şahlar oğlu – kapitan
Xəlilov Ülvi Səməd oğlu – kapitan
Məmmədov Elsevər Ağaverdi oğlu – kapitan
Mövlayev Anar Ələkbər oğlu – kapitan
Muradov Bəhruz Novruz oğlu – kapitan
Süleymanov Fərhad Mahir oğlu – kapitan
Vaqifli Eltun Aydın oğlu – kapitan
Zeynalov Orxan Bəhrəm oğlu – kapitan
Alıyev Rəşad Vəli oğlu – baş leytenant
Aslanov Rüstəm Mirzə oğlu – baş leytenant
Bağırov Alçın Bayram oğlu – baş leytenant
Daşdəmirov Orxan Əmircan oğlu – baş leytenant
Əliyev Firal Hafis oğlu – baş leytenant
Əmiraslanov Elmar Emin oğlu – baş leytenant
Həsənov Ramin Vahid oğlu – baş leytenant
Hüseynli Faiq Bilal oğlu – baş leytenant
Hüseynli Vahid Hüseynqulu oğlu – baş leytenant
Qəhriyev Yaşar Şadət oğlu – baş leytenant
Qubadov Asiman Nuru oğlu – baş leytenant
Quliyev Asim Bahadır oğlu – baş leytenant
Quliyev Camal Tarzan oğlu – baş leytenant
Qurbanov Orxan Yaşar oğlu – baş leytenant
Mədətli Təbriz Araz oğlu – baş leytenant
Məmmədov Amil Rafiq oğlu – baş leytenant
Məmmədov Ramin Həbib oğlu – baş leytenant
Məmmədzadə Vüsal Qabil oğlu – baş leytenant
Musayev Xəzər Azər oğlu – baş leytenant
Nəsirov Cabbar Etibar oğlu – baş leytenant
Rəsulov Hüseyn Rəsul oğlu – baş leytenant
Tağıyev Tacəddin Qəhrəman oğlu – baş leytenant
Tağızadə Əflatun Nurəddin oğlu – baş leytenant
Vəliyev Zamin Şirəhməd oğlu – baş leytenant
Əkbərov Fərid Namiq oğlu – leytenant
Abişov Sadiq Əlman oğlu – baş gizir
Cəfərov Vüsal Fizuli oğlu – baş gizir
Əsgərova Sevda Rasif qızı – baş gizir
Mustafayev Elman Səməd oğlu – baş gizir
Naqiyev Nicat Yusub oğlu – baş gizir
Sadiqov Pərvin Hüseyn oğlu – baş gizir
Ağayev Əziz Mürsəl oğlu – gizir
Xəlilov Elşən Azadxan oğlu – gizir
İsmayılov İsmayıl Fazil oğlu – gizir
Qəssabov Aşqın Şahmar oğlu – gizir
Məcidov Rauf Ramiz oğlu – gizir
Mikayıllı Pənah Maqsud oğlu – gizir
Səfərov Elvin Səfiyar oğlu – gizir
Səmədov Həmid Bilman oğlu – gizir
Şahpələngov Elnur Şahabbas oğlu – gizir
Vəliyev Cavid Zubeyir oğlu – gizir
Kazımzadə Tural Əzizağa oğlu – baş çavuş
Nağıyev Əli Elşən oğlu – əsgər (ölümündən sonra).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 avqust 2024-cü il**

# "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında elmi və texnoloji əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il iyulun 11-də İslamabad şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında elmi və texnoloji əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 avqust 2024-cü il**

# "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il iyulun 11-də İslamabad şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 avqust 2024-cü il**

## “Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Dövlət rüsumu haqqında”, “Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında”, “Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında”, “Gömrük tarifi haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1192-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Dövlət rüsumu haqqında”, “Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında”, “Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında”, “Gömrük tarifi haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1192-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram**:

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.19-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 164.1.19-cu maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi nəzərdə tutulur;

1.3. “Gömrük tarifi haqqında” Azərbaycan Respublikası Qanununun 20.0.28-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 20.0.28-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi nəzərdə tutulur;

1.5. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 2 nömrəli əlavəsinin “Qeyd” hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 2 nömrəli əlavəsinin “Qeyd” hissəsinə uyğun olaraq, həmin əlavənin 6-cı və 7-ci maddələrində nəzərdə tutulan fəaliyyət növləri üzrə lisenziya alınması tələbinin şamil olunmadığı paylarının (səhmlərinin) 100 faizi dövlətə məxsus olan hüquqi şəxslərin siyahısını dörd ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2. “Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Dövlət rüsumu haqqında”, “Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında”, “Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında”, “Gömrük tarifi haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1192-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3** “Azərbaycan Respublikasında bəzi sahibkarlıq fəaliyyəti növlərinə lisenziya verilməsinin təkmilləşdirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 28 mart tarixli 310 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 176 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3-cü hissənin ikinci abzası ləğv edilsin;

3.2. aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

“3-1. Döyüş təyinatlı hərbi texnika, hərbi silah və döyüş sursatının Azərbaycan Respublikasının ərazisində satın alınması yalnız Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və hərbi xidmət nəzərdə tutulan digər dövlət orqanları, həmçinin müdafiə təyinatlı məhsulların istehsalını və təmirini tamamlamaq məqsədilə müvafiq fəaliyyət növləri üçün lisenziya almış və ya lisenziya alınması tələbinin şamil olunmadığı hüquqi şəxslər tərəfindən həyata keçirilir. Həmin orqanlar və hüquqi şəxslər tərəfindən döyüş təyinatlı hərbi texnika, hərbi silah və döyüş sursatının Azərbaycan Respublikasının ərazisində satınalma müqavilələri barədə məlumat bu müqavilələr bağlanıldığı vaxtdan bir ay müddətində Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinə verilir.”.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 798 (Cild I) ilə təsdiq edilmiş “Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verən mərkəzi icra hakimiyyəti orqanlarının Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci və 2-ci hissələr aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| **1.** | Hərbi silah və sursatın layihələndirilməsi və istehsalı üçün avadanlıq, hərbi silah və sursatın ehtiyat hissələri | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi |
| **2.** | Döyüş təyinatlı hərbi texnikanın layihələndirilməsi və istehsalı üçün avadanlıq, döyüş təyinatlı hərbi texnikanın ehtiyat hissələri | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi |

4.2. aşağıdakı məzmunda 1-1-ci və 2-1-ci hissələr əlavə edilsin:

| | | |
|---|---|---|
| **1-1.** | Döyüş təyinatlı hərbi texnika və hərbi silah (satışına, idxalına və ixracına münasibətdə) | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi (ixracına münasibətdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəyi nəzərə alınmaqla) |

| | | |
|---|---|---|
| **2-1.** | Döyüş sursatı (satışına, idxalına və ixracına münasibətdə) | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi (ixracına münasibətdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəyi nəzərə alınmaqla) |

4.3. “Qeyd” hissəsi aşağıdakı redaksiyada verilsin:

“**Qeyd:**

1. Bu Siyahının 3-cü, 6-cı, 8-ci və 9-cu hissələrində göstərilən əşyaların idxal-ixrac əməliyyatları, habelə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və hərbi xidmət nəzərdə tutulan digər dövlət orqanları tərəfindən bu Siyahının 1-ci, 1-1-ci, 2-ci və 2-1-ci hissələrində göstərilən əşyaların idxal-ixrac əməliyyatları Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları”nın 7-ci hissəsinə əsasən, müstəsna olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamları əsasında həyata keçirilir.

2. Bu Siyahının 1-ci, 1-1-ci, 2-ci və 2-1-ci hissələrində göstərilən əşyaların idxal-ixrac əməliyyatları üçün bu Siyahı ilə müəyyən edilən mərkəzi icra hakimiyyəti orqanlarından xüsusi icazənin, habelə rəyin alınması tələbi Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə və hərbi xidmət nəzərdə tutulan digər dövlət orqanlarına şamil edilmir.”.

**5** “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 671 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.2-ci bəndə “3 nömrəli” sözlərindən əvvəl “2 nömrəli əlavəsinin “Qeyd” hissəsində,” sözləri əlavə edilsin;

5.2. 2.3.5-ci yarımbənddən “həyata keçirir” sözləri çıxarılsın;

5.3. aşağıdakı məzmunda 2.3.6-cı yarımbənd əlavə edilsin:

“2.3.6. həmin Qanunun 2 nömrəli əlavəsinin 6-cı və 7-ci maddələrində nəzərdə tutulmuş lisenziya tələb olunan fəaliyyət növləri üzrə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi həyata keçirir;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 avqust 2024-cü il**

# Hava hücumundan müdafiə bölmələrinin taktiki təlimi

**Cari ilin hazırlıq planına uyğun olaraq, hava hücumundan müdafiə bölmələri ilə taktiki-xüsusi təlim keçirilib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, təlim zamanı S-300 “Favorit” zenit-raket komplekslərinin divizionlarının döyüş heyətləri texnikanı döyüşə hazır vəziyyətə gətirərək mövqe rayonlarına marş edib, start mövqelərinə yerdəyişmə, ərazinin hazırlanması və maskalanması tapşırıqlarını yerinə yetiriblər.

Təlimdə vacib obyektlərin hava hücumundan mühafizəsi, habelə şərti düşmənin raket zərbələrinin dəf edilməsi üzrə tapşırıqlar da müvəffəqiyyətlə icra edilib.

Məşğələlərin keçirilməsində əsas məqsəd hərbi qulluqçuların nəzəri bilik və praktiki vərdişlərinin artırılması, həmçinin hava hücumundan müdafiə bölmələrinin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılmasıdır.

***XQ***

# DSX rəhbərliyi Ulu öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



**Azərbaycan Sərhəd Mühafizəsinin 105 illik yubileyi ərəfəsində - avqustun 17-də Dövlət Sərhəd Xidmətinin (DSX) rəhbərliyi və şəxsi heyəti Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin əziz xatirəsini dərin hörmətlə yad edib, məzarı önünə gül dəstələri qoyub.**

DSX-nin mətbuat mərkəzindən bildirilib ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi ehtiramla anılıb.

Şəhidlər xiyabanında Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarını fəda edən Vətən övladlarının da xatirəsi yad olunub, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyulub. Həmçinin ilk sərhədçi milli qəhrəman Eldar Harun oğlu Məmmədovun məzarı ziyarət edilib.

***XQ***

# Atəşkəsi pozmaqla sülh prosesini öldürmək cəhdi



**(əvvəli 1-ci səhifədə)**

Xarici qüvvələr dedikdə, son dövrlər kollektiv Qərbin vacib ermənipərəst aləti rolunda daha əzmlə çıxış edən Avropa İttifaqıdır. Yeri gəlmişkən, qurumun Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar da şərti sərhəd zonasında atəşkəsin pozulması hallarına münasibətini açıqlayıb. O deyib ki, rəsmi İrəvanın atəşkəsin pozulması hallarının araşdırılması üçün müştərək komissiya yaratmaq təklifini dəstəkləyir. Təsəvvür edin, Aİ-nin mülki müşahidə missiyası var, onlar əllərində durbinlər sərhəddə keşik çəkirlər, ancaq deyə bilmirlər ki, atəşkəsi pozan hansı tərəfdir. Görəsən nə üçün? Yoxsa, onların görmə problemləri var?

Təbii ki, problem başqadır. Məlumdur ki, atəşkəsin pozulması hallarının araşdırılması manipulyativ gedişdir. Burada psixoloji baxımdan münasibətlərdəki trayektoriyanı geri çəkmək istəkləri var. Təsəvvür edin, tərəflər sülh gündəliyini müzakirəyə çıxardıqları, daha doğrusu, çıxarmalı olduqları bir zamanda xırda bir mətləbə köklənəcəklər. Olmazmı ki, Ermənistan bu kimi hallara yol verməsin? Görünür, olmazmış. Bunu T.Klaar da bilməmiş deyil.

Ermənistan yeni aldığı silah-sursatı sınaqdan çıxarmaq üçün atəşkəsi pozmasın, bəs nə etsin? Sual ritorik, eyni zamanda, ironikdir. Bu ironiyada böyük hədəf elə həm də həmin Klaarın özüdür. Çünki Ermənistanın silahlandırılmasında onun çalışdığı qurum də bilavasitə olmasa da, bilvasitə iştirak edir. Hələ bu sıraya Klaarın təmsil olunduğu kollektiv Qərb düşərgəsinin ABŞ kimi nəhəngini də əlavə etsək, erməni silahlı qüvvələrinin nəyə görə ipə-sapa yatmadıqlarını anlamaq mümkündür. Nəzərə alaq ki, Birləşmiş Ştatların hərbçilərinin bir qrupu Ermənistandadır və bu qrup erməni xüsusi təyinatlılarına təlim keçirir, yeni silahlarla davranmaq vərdişləri aşılayırlar. Belə demək mümkünsə, real təlim poliqonu isə şərti sərhəddir, hədəflər Azərbaycan hərbçiləridir.

Bəli, Ermənistanın atəşkəsi pozması planlıdır və düşünülmüş məqsədə hesablanıb. Bildirdiyimiz kimi, ölkə sülhün hazırkı şərtləri ilə razı deyil. İndiki durumda atəşkəsi pozmaqla ATƏT-in canını tapşırmış Minsk qrupunu bərpa etmək istəkləri, demək olar, eyni şeydir. Hər iki hal sülh gündəliyinə zərərdir.

Minsk qrupundan söz düşmüşkən, həm bu məsələnin ortaya atılması, yəni Azərbaycan və Ermənistan arasında sülh danışıqlarının yalnız kağız üzərində qalan bu təsisatın egidasına verilməsi cəhdləri, həm də rəsmi İrəvanın təklif etdiyi, Klaarın dəstəklədiyi atəşkəsin pozulması hallarının müştərək araşdırılması mexanizmi 2020-ci ildən indiyədək sülh yolunda əldə edilmiş bütün nailiyyətləri şübhələndirməkdir, prosesi ölü nöqtəyə qaytarmaq istəyidir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Londonun mərkəzində yanğın

**Londonun mərkəzindəki incəsənət və mədəniyyət mərkəzi olan Somerset Evində yanğın baş verib. Hadisə yerinə 125 yanğınsöndürən cəlb olunub.**

Yanğında xəsarət alanlar olmayıb və heç bir sənət əsərinə zərər dəyməyib. London yanğınsöndürmə briqadasından bildirilib ki, yanğın binanın qərb hissəsində baş verib.

Qeyd edək ki, Temza çayının sahilində yerləşən tarixi incəsənət mərkəzi həftə sonları turistlərlə dolu olur. Vinsent Van Qoq, Manet və Pol Sezan kimi sənətkarların əsərləri burada sərgilənir.

***XQ***

# Azərbaycan – Rusiya: Münasibətlər yüksələn xətlə davam edir

## Haylar bu əməkdaşlığa öz prizmalarından baxırlar

**Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana gözlənilən dövlət səfəri regionda və dünyada önəmli hadisələrin baş verdiyi dövrə təsadüf edir. Verilən məlumatlara əsasən, Bakıdakı danışıqlar zamanı Rusiya–Azərbaycan münasibətlərinin gələcək inkişafı məsələləri, eləcə də aktual beynəlxalq və regional problemlər müzakirə olunacaq. Səfərin yekunları üzrə dövlət başçılarının birgə bəyanat qəbul edəcəkləri, hökumətlərarası bir neçə sənədin imzalanması gözlənilir.**



Onu da qeyd etmək lazımdır ki, iki ölkə arasında əməkdaşlıq həyatın bütün sahələrini əhatə edir. Azərbaycan Rusiyanın strateji tərəfdaşıdır və qarşılıqlı münasibətlərin nüvəsində mehriban qonşuluq prinsipləri dayanır. Rusiya ilə Azərbaycan arasında diplomatik münasibətlər 1992-ci il aprelin 4-də qurulub və əməkdaşlığın hüquqi əsasını 170-dən çox dövlətlərarası, hökumətlərarası və idarələrarası, o cümlədən iqtisadi sahədə 50-dək müqavilə və saziş təşkil edir. Bunlardan sonuncusu və statusuna görə ən mötəbəri 2022-ci il fevralın 22-də imzalanmış Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamədir.

Azərbaycan Dövlət Gömrük Komitəsinin məlumatına görə, Rusiya Azərbaycanın ticarət tərəfdaşları arasında İtaliya və Türkiyədən sonra üçüncü yerdədir. Ölkələr arasında qarşılıqlı ticarətin həcmi 2023-cü ilin sonunda əvvəlki illə müqayisədə 17,5 faiz artaraq 4,358 milyard dollara çatıb.

*

Azərbaycanın xarici siyasəti həmişə aparıcı güc mərkəzləri – ABŞ, Çin, Aİ və Rusiya və s. ilə normal münasibətlərin saxlanmasına yönəlib. Yəni rəsmi Bakının xarici siyasətinin əsas mahiyyəti budur. Əbəs yerə deyil ki, Azərbaycan 2011-ci ildən Qoşulmama Hərəkatının (QHH) tamhüquqlu üzvü kimi onun fəaliyyətinə mühüm töhfələr verir. İntəhası, etiraf etmək lazımdır ki, hazırda Cənubi Qafqaz özünün heç də dinc və sabit dövrünü yaşamır. Bunun başlıca səbəbi Ermənistanın sülh sazişinin imzalanmasını uzatması və onun hər vasitə ilə kənar aktorları bölgəyə cəlb etmək cəhdləridir. Hazırda Ukraynada miqyası genişlənməkdə olan müharibə, eləcə də Yaxın Şərqdə davam edən hərbi gərginlik Qərblə Rusiya arasında qarşıdurmanı daha da dərinləşdirib. Bu narahatedici geosiyasi atmosferi nəzərə alan Azərbaycan regionu müxtəlif sarsıntılardan qorumaq üçün beynəlxalq aktorlarla daim əlaqə saxlayır. Əslində, postmüharibə dövrü adlandırdığımız son dörd ildə Azərbaycan hakimiyyəti həmişə çevik və hərtərəfli düşünülmüş və balanslaşdırılmış xarici siyasət yürüdür. Bu kontekstdən yanaşsaq, Azərbaycanın beynəlxalq münasibətlərin nizamlanmasına töhfəsini təsdiqləyən misal kimi, Bakının NATO və Rusiya arasında vacib görüşlərin keçirilməsi üçün dəfələrlə öz platformasını təqdim etməsi faktını göstərə bilərik. Azərbaycanın regional və beynəlxalq terrorizmlə mübarizəyə yönəlmiş səylərini isə ayrıca qeyd etmək lazımdır. Hazırda Bakının əsas məqsədi regionda qaynar fazaya daxil olan "böyük güclər" arasında qarşıdurma riskini minimuma endirməkdir. Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasət məhz buna yönəlib.

*

Rusiya lideri Vladimir Putinin Azərbaycana dövlət səfəri zamanı, aydın məsələdir ki, Bakı–İrəvan münasibətlərinin hazırki durumu, sülh danışıqlarının dinamikası barədə də fikir mübadiləsi aparılacaq. Bu baxımdan Kreml sahibinin Bakıya səfərinin Ermənistanda böyük maraqla izlənməsi normal qəbul edilməlidir. Artıq səfər ərəfəsində bəzi erməni politoloqları, blogerlər müxtəlif ehtimal və versiyalar üzərində "baş sındırırlar". Onlardan biri sosial şəbəkələrdə fəallığı ilə seçilən bloger Robert Ananyandır. Onun liderlərin Bakı görüşü barədə şərhi belə başlayır: "Azərbaycan Ermənistanla sülh müqaviləsini imzalamaqdan imtina edərək "Rusiyanın bölgəyə qayıdışına" zəmin hazırlayır. Amma bu taktika iflasa uğrayacaq və mənfi təsirləri olacaq. Azərbaycanın dirçəlişinə və Cənubi Qafqaza qayıtmasına böyük ümidlər bəslədiyi Rusiya hazırda Ukraynaya qarşı müharibədə ciddi sınaqlarla üz-üzədir".

Ananyanın Rusiyanı "2020-ci ildə anti-erməni sövdələşmələrə gedən dövlət" kimi görməsi də təəccüb doğurmamalıdır. Daha sonra hay bloger öz məntiqinə görə belə bir sual formalaşdırır: "Görəsən, Azərbaycan niyə Ermənistanla münasibətlərində Rusiyanın iştirakını təmin etməyə çalışır?" Bununla, guya, İrəvanın qərbyönlü, Bakının isə rusiyapərəst olduğuna işarə vuran Ananyan "Bakının İrəvanla sülh müqaviləsinin imzalanmasını gecikdirməsini, müqavilədən kommunikasiyaların açılması bəndinin çıxarılmasını, delimitasiya qaydalarının razılaşdırılmaması kimi süni tələblər irəli sürməsini", az qala, Moskvadan asılılığa bağlamağa çalışır. Qoyduğu suala isə özü belə cavab verir: "44 günlük müharibə və 9/10 noyabr gerçəkliyi Rusiya–Türkiyə–Azərbaycan müqavilələri çərçivəsində baş verdi. Rusiya ilə razılaşma sayəsində Azərbaycan hərbi uğur qazandı. Rusiya müharibə zamanı Ermənistana lazımi sursatı vermədi və onun uğur qazanmasına mane oldu".

Reallıqdan və məntiqdən uzaq ehtimallarını "üfürən" erməni blogerin nəzərinə çatdırmağı lazım bilirik ki, bu gün də onun ölkəsinin cənub qapılarına nəzarəti həyata keçirən Rusiya 44 günlük müharibədə İrəvana nəinki silah vermədi, əksinə, demək olar ki, onu pulsuz təmin elədi. Sadəcə, onların hökuməti Azərbaycanın daha müasir avadanlıqla və ordumuzun yeni döyüş taktikası ilə silahlandığını "yaddan çıxarmışdı". Həm də, onlardan fərqli olaraq, Azərbaycan əsgəri öz torpağının azadlığı uğrunda qəhrəmancasına vuruşurdu. Məğlub olmaq acı hissdir, amma onu həzm etməyi bacarmaq lazımdır.

*

Azərbaycanın son danışıqlarda "Rusiyanın kommunikasiyaların açılmasında iştirakını" istəməsini, amma bununla bağlı İrəvanın kifayət qədər konstruktiv təkliflərini "nəzərə almadığını" yazan bloger əmindir ki, Rusiya Azərbaycandan Qərbin vasitəçiliyi ilə Ermənistanla saziş imzalamayacağına və "kollektiv Qərbin Cənubi Qafqazda güclənməsinə imkan verməyəcəyinə dair təminat aldıqdan sonra öz sülhməramlılarını Dağlıq Qarabağdan çıxarmağa razılaşıb".

"Siyasi təhlil və proqnozlarında" bir az da irəli gedən Ananyan ərz edir ki, "əslində, bu məsələdə razılıq əldə olunmayıb, bundan sonra Bakı və İrəvan məlumat yaydılar ki, kommunikasiyaların açılması ilə bağlı bənd qarşılıqlı razılaşma əsasında sülh sazişinin mətnindən çıxarılıb".

Bakı ona başqa seçim variantı buraxmayan İrəvanla necə davranmağın gərəkliyini, hər halda, kimdənsə soruşmalı deyildi. Bir də ki, sözünü çevirən, boynuna götürdüyü öhdəliyi yerinə yetirməkdən qaçan Bakı deyil, İrəvandır! Məgər ərazisindən keçəcək kommuniksiyalara nəzarətin Rusiya sərhədçilərinə və federal xidmətə həvalə edilməsinin qeyd olunduğu 10 noyabr Bəyanatını Paşinyan özü imzalamayıb?

Amma bir proqnozunda Ananyan tamamilə haqlıdır: "Çox güman ki, yaxın aylarda heç bir sülh müqaviləsi imzalanmayacaq. Sərhədlərin delimitasiyası və kommunikasiyaların açılması məsələlərinin həlli yolları olmayacaq. Bakı Ermənistanı yarımblokadada saxlamaq istəyir".

Sülh danışıqları prosesinə hər vasitə ilə əngəllər törədən, buraya Parisi, yaxud Vaşinqtonu şərik etməyə çalışan, xaricdən silah-sursat daşıyan və Bakının sülh sazişinin mətninə sayca onuncu təkliflər paketinə cavab verməyə tələsməyən İrəvanla hansı dildə danışmaq lazımdır? Hələ biz Avropa İttifaqının sərhədimizdə kəşfiyyat fəaliyyəti ilə məşğul olan "mülki missiyasını", ABŞ-dan birbağa İrəvana hərbi yüklərin və heyətin daşınmasını demirik. Bütün bunların qarşılıqlı münasibətlərin normallaşmasına "badalaq vurmaq"dan, sülh danışıqlarına aparan yola "minalar düzmək"dən başqa adı yoxdur.

*

"Politoloq" Ananyan siyasi təxəyyülünün üfiqlərini bir qədər də genişləndirərək, bundan sonra bölgədə cərəyan edəcək hadisələrin istiqamətinin ABŞ-da prezident seçkilərinin nəticəsindən birbaşa asılı olduğunu qətiyyətlə bəyan edir: "Türkiyənin Ermənistanla münasibətlərini Azərbaycanla sülh müqaviləsinin imzalanması ilə şərtləndirməsini dayandıracağı istisna deyil. Problem ondadır ki, Azərbaycan süni tələblərlə müqavilənin imzalanmasına, Türkiyə ilə sərhədin açılmasına da mane olur. Onların ümid etdikləri kimi, Donald Trampın seçkilərdə qalib gələcəyi hələlik baş vermiş fakt deyil".

Azərbaycan kollektiv Qərbin və Birləşmiş Ştatların son bir ildə bölgəyə yönəlik və ermənipərəst siyasətlərinin qarşısına sədd çəkməyi bacaran dövlətdir. Ananyan unutmasın ki, Fransanın casus şəbəkəsini ölkəsindən qovan, ABŞ Dövlət katibini dəfələrlə zəng etməyə məcbur edən Azərbaycan rəhbərliyi hay ekspertin yanlış interpretasiya etdiyi indiki vəziyyətdə də düzgün addımlar atacaq. Noyabrın əvvəlində okeanın o tayında keçiriləcək seçkilərin nəticələrinin isə Bakı üçün heç bir isti-soyuğu olmayacaq. Bütün hallarda nəticələrdən uğursuzluğa oradakı erməni lobbisi və daşnak-revanşist haylar düçar olacaq. Onlar artıq buna öyrəncəlidirlər...

***İmran BƏDİRXANLI***
***XQ***

---

# "İnsanlar anladılar ki, Baqrat Qarabağ klanının adi marionetkasıdır"

**(əvvəli 1-ci səhifədə)**

Məsələn, o, bir müddət öncə hayların "Ararat" adlandırdıqları tarixi Azərbaycan torpağı Zəngibasar mahalının inzibati mərkəzi olan Uluxanlı şəhərində (Ermənistan SSR Ali Sovetinin 1950-ci il iyulun 31-də qəbul etdiyi qərarla Uluxanlının adı dəyişdirilərək Masis adlandırılıb–S.H.) görüş zamanı irqçi fikirlər səsləndirib. Deyib ki, azərbaycanlılar 1988-ci ildə Masis rayonunda kütləvi zəhərlənmə (?) törədiblər. Sonra isə əlavə edib ki, 1988-ci ilə qədər buralar tamamilə azərbaycanlılarla dolu olduğu üçün heç kim sərbəst hərəkət edə bilmirdi. "Vətən naminə Tavuş" adlı qondarma hərəkatın adını "Müqəddəs mübarizə"yə dəyişən Baqrat ağ yalan danışmağa bu cür davam edib: "Biz onları necə yola saldıq?! Çox sakit. Ev, yer, yastıq, yorğan... Maşınlara mindirdilər və dedilər ki, get. Getdikləri üçün bu adamların bəziləri ağladı. Bəs indi onlar nə deyirlər? Deyirlər ki, 300-400 min azərbaycanlı Qərbi Azərbaycana köçürüləcək".

Ermənistan hakimiyyətini nüfuzdan salmaqdan ötrü hər cür şər-böhtandan istifadə etməyi özünə rəva görən B.Qalstanyan onu da bildirib ki, guya, Nikol Paşinyan hökuməti qərbi azərbaycanlıların geri qaytarılması üçün Azərbaycanla "gizli razılaşmaya" gedib: "Mən hətta, əminəm ki, onlar yerləri və ünvanları da bölüşüblər. Onlar azərbaycanlıların qayıdışından danışanda qeyd edirik ki, Masis və Vardenis (Basarkeçər) diqqət mərkəzində olan əsas bölgələrdir və biz buna dözəcəyikmi?"

Keşişin sözlərinə görə, guya, Azərbaycan rəsmi İrəvan qarşısında şərt qoyub ki, kommunikasiyalar yalnız Hayastan konstitusiyanı dəyişdikdə, azərbaycanlıları qəbul etdikdə açılacaq və Ermənistan Qərbi Azərbaycan adlandırılacaq.

Yeri gəlmişkən, qeyd edək ki, Qərbi Azərbaycan İcması hərəkat rəhbərinin təxribatçı, irqçi, xalqlararası ədavəti qızışdıran fikirləri ilə bağlı ayrıca bəyanat yayıb. Bəyanatda deyilir: "Ermənistanda özünü "Müqəddəs mübarizə" hərəkatının lideri kimi təqdim edən arxiyepiskop Baqrat Qalstanyan qərbi azərbaycanlılar və onların geri qayıdış hüququ ilə bağlı irqçi və ksenofob (ksenofobiya insanın başqa



xalqlardan və hansısa formada özündən fərqli olan şəxslərdən qorxmasına və nifrət etməsinə verilən addır–S.H.) mövqedən çıxış edən bəyanat verib. Din xadimi, yoxsa siyasətçi olduğu anlaşılmayan bu diletant, reallıqdan uzaq şəxs soydaşlarımızla bağlı radikal xarakterli fikirlər səsləndirib, 300 mindən çox qərbi azərbaycanlının öz ata-baba torpaqlarına sülh yolu ilə qayıdışı məsələsini təhrif edərək, ona siyasi və ksenofob don geyindirməyə çalışıb".

Qərbi Azərbaycan İcması B.Qalstanyanın məlum açıqlamasını qınayıb və arxiyepiskopu belə irqçi yanaşmadan çəkinməyə çağırıb. Qeyd edilib ki, din xadimi olaraq sülhü, ədaləti, barışığı təmsil və təbliğ etmək əvəzinə arxiyepiskopun bu cür şovinist mövqedən çıxış etməsi erməni qriqorian kilsəsində və cəmiyyətində irqçi yanaşmaların hakim olduğunu göstərir. İcma, həmçinin sülh prosesinə verdiyi zərərdən dolayı Ermənistan hökumətindən ərazisində bu kimi irqçi meyillərə imkan verməməyi tələb edib.

B.Qalstanyanın hərəkatının Azərbaycanla sülh prosesinə mənfi təsir göstərdiyi bir faktdır. Elə Ermənistanın özündə də xəstə təfəkkürdən az-çox arınmış ictimai xadimlər, siyasətçilər, elm, sənət adamları, jurnalistlər, eləcə də geniş xalq kütlələri "srbazan"a mənfi münasibət bəsləyirlər. B.Qalstanyanı ən kəskin tənqid atəşinə tutan informasiya resurslarından biri analitik yazılar üzrə ixtisaslaşmış "Armenian Report" saytıdır. Bugünlərdə saytda dərc olunan "Arxiyepiskop Baqrat, Yüksək Sərçə və xanım Karmodi" sərlövhəli təhlildə ABŞ istehsalı olan dünyaca məşhur "Taxt-tac oyunları" teleserialındakı personajlardan biri ilə B.Qalstanyan arasında maraqlı paralellər aparılıb: "Çoxlarınız, əziz oxucular, yəqin ki, məşhur "Taxt-tac oyunları" serialına baxmısınız. Orada belə bir personaj var idi – Yüksək Sərçə. O, Kral Torpağındakı dini fanatiklərin yaşlı lideri, həyatının böyük hissəsini acınacaqlı şəkildə, bir hissəsini isə sürgündə yaşamış baş kahin idi. Lakin o, sonda çox güclü bir liderə və kralın özünü marionetkaya çevirir. Heç kimi deyə bilmirəm, amma şəxsən məni serialdakı bu personaj çox qıcıqlandırırdı. Məni onun bizim siyasi çevrədəki solğun surəti də qıcıqlandırır. İndi mən son vaxtlar özünü "Ermənistanın xilaskarı" kimi təsəvvür edən arxiyepiskop Baqrat Qalstanyandan danışıram".

Müəllif Tevos Arşakyan yazır ki, yay fəsli ilə əlaqədar ölkədə ümumi sakitliyə baxmayaraq, "xilaskar" istirahət etməyi özünə rəva görmür, fəal surətdə icmaları və bölgələri gəzir, gülməli çıxışlar edir: "Üstəlik, getdikcə onun çıxışlarında bir qədər də dini fanatizm görünür. O, hətta hərəkatını "Müqəddəs mübarizə" adlandırıb. Amma bu, ona kifayət etmir. Məsələn, onun Ararat vilayətinin kəndlərinin birində camaata dediklərinə siz də "heyran" olun: "Mən heç gizlətmirəm ki, bizim yolumuz, planımız, məqsədimiz antixristi (Dəccalı) ölkəmizdən çıxarmaq, aid olduğu yerə göndərməkdir. Onun həyatımıza gətirdiyi fəlakət, onunla yaşamaq, sadəcə olaraq, cinayətdir. Bu gün biz vətən itkisi ilə üz-üzəyik və insan həyatının, münasibətlərin məhvi ərəfəsindəyik. Bir müddətdir ki, düşmənçilik və yalan içində yaşayırıq. Bizim missiyamız daim bu barədə danışmaqdır. Biz belə deyildik. Heç kim heç kimə güvənmir. Bütün bunları həyatımızdan çıxarmalıyıq. Biz sevgi və həmrəylik içində yaşamalıyıq"".

Jurnalist qeyd edir ki, antixrist, fəlakət, missiya kimi sözlər son vaxtlar Qalstanyanın leksikonunda özünə möhkəm yer eləyib: "Bəs, antixrist adı altında Paşinyan nəzərdə tutulursa, o zaman Baqrat özünü kim hesab edir? İsa Məsih? Peyğəmbər? İnsanda elə bir hiss yaranır ki, Baqrat nəhayət, eyni ilə Yüksək Sərçə kimi dəli olub. Əgər əvvəllər Qalstanyan tələm-tələsik öyrəndiyi siyasi şüarlarla hansısa yolla öyünməyə çalışırdısa, bunun ona tərəfdar qazandırmadığını anlayaraq, erməni xalqının dinə bağlılığını yaxşı bildiyi üçün hazırda "ağır artilleriyadan" istifadə etmək qərarına gəlib. Ancaq bu, çətin ki, onun populyarlığını artırsın".

Məqalədə, "Qalstanyanın, ümumiyyətlə, populyarlığı var idimi?" sualı qoyulur və buna belə cavab verilir: "Düşünürəm ki, Tavuşdan İrəvana pay-piyada gələndə var idi. Ancaq artıq paytaxtda olarkən, o, bir-birinin ardınca səhv etməyə başladı. Bunun nəticəsində baş verənlərlə bağlı cəmiyyətin gözləri açıldı. İnsanlar anladılar ki, onların qarşısında Qarabağ klanının adi bir marionetkası dayanıb. Bu isə Ermənistan şəraitində istənilən siyasətçinin karyerasına son qoyur. Ölkəni yoxsulluğa, hüquqsuzluğa aparan o əclafların 20 illik hakimiyyətlərinin acı xatirələri yaddaşlardan silinməyib".

Təhlildə daha sonra deyilir: "Burada gülməli məqam odur ki, Paşinyana ultimatumlar verən, onun istefasını tələb edən Baqrat "heç kəsin kürsüyə, vəzifəyə, pula can atmadığını, onlara namus və vətəndən başqa heç nə lazım olmadığını" iddia edir. Ola bilsin ki, Qalstanyanı idarə edənlər artıq ona rolunun nə olduğunu və Paşinyan hökumətinin devrilməsi halında onun nəyə ümid edə biləcəyini izah ediblər. Təbii ki, heç kim onu yüksək vəzifələrlə mükafatlandırmayacaq. Yüksək vəzifələr öz hakimiyyətini bərpa etmək arzusunda olan Qarabağ klanının üzvləri arasında çoxdan bölünüb. Və burada Qarabağ klanı üçün, necə deyərlər, bütün vasitələr yaxşıdır, o cümlədən, Baqratın indiki hakimiyyətin siyasi rəqibindən bir növ övliyaya çevrilməsi, guya, təkcə ölkənin yox, həm də vətəndaşların ruhunun qayğısına qalması da..."

Müəllif sonda bildirib ki, Qalstanyanın öhdəsinə götürdüyü hər bir işin sonu pis qurtarır, bu, cəmiyyətdə daha böyük uçurumların yaranmasına səbəb olur. Baqratın hazırda üzərinə götürdüyü missiya da bu baxımdan istisna deyil.

***Səxavət HƏMİD***
***XQ***



**Milli Məclisə seçkilərə 13 gün qaldı**

**SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!**



# Xocalılılar doğma yurdda səs verəcəklər



**(əvvəli 1-ci səhifədə)**

118 saylı Ağdam–Xocalı seçki dairəsinin 73 saylı məntəqə seçki komissiyasının sədri Ceyhun Əbdülovdan aldığımız məlumata görə, Xocalı şəhər 1 saylı tam orta məktəbin binasında yerləşən məntəqədə parlament seçkilərinə hazırlıq yüksək səviyyədə davam edir: “Milli Məclisə seçkilər ata-baba yurdlarına qayıtmış Xocalı sakinləri üçün xüsusilə əlamətdar hadisədir. İlk dəfə olaraq Xocalı şəhərinin özündə seçki məntəqəsi yaradılıb və xocalılılar 32 ildən sonra doğma vətənlərində səsvermə hüquqlarından istifadə edəcəklər. Hazırlıq prosesi MSK-nın Təqvim Planına uyğun aparılır və seçkilərin azad, şəffaf keçirilməsi üçün bütün zəruri tədbirlər görülür. Məntəqə lazımi avadınlıqla təhciz edilib, səsvermə kabinələri tam hazır vəziyyətə gətirilib. Maarifləndirici materiallar lazımi yerlərə asılıb. Eləcə də, komissiya üzvlərinin və müşahidəçilərin səsvermə günü öz vəzifələrini normal şəkildə həyata keçirmələri üçün şərait yaradılıb”.

Sədr məlumat verdi ki, seçki məntəqəsinin üzvləri DSK-da keçirilən treninqlərdə iştirak ediblər. Onlara seçki qanunvericiliyi ilə verilən hüquqlar, məsul olduqları vəzifələr bir daha geniş şəkildə izah olunub.

Xocalı şəhərində ilk dəfə yaradılmış 73 saylı məntəqənin fəaliyyəti ölkəmizdə parlament seçkilərini izləyəcək beynəlxalq müşahidəçilərin də diqqət mərkəzindədir. C.Əbdülovun sözlərinə görə, avqustun 17-də ATƏT-in İnsan Haqları və Demokratik Təsisatlar Bürosunun müşahidəçiləri məntəqədə olub və burada seçkilərə hazırlıq prosesi ilə maraqlanıblar: “Məntəqəmiz yeni tikilmiş müasir məktəb binasında yerləşir. Müşahidəçilər burada azad və şəffaf seçkilərin keçirilməsi üçün lazımi şəratin yaradıldığının şahidi olublar”.

Qeyd edək ki, Xocalı rayonunun ərazisində daha iki – 71 və 72 saylı seçki məntəqələri fəaliyyət göstərir.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

# Yuri Laqunin: Parlament seçkiləri Azərbaycanda sabitliyin göstəricisidir

**“Azərbaycan Qafqazda sabitlik adasına çevrilir. Parlament seçkisi bu statusu bir daha təsdiq edir. Milli Məclisə seçkilər imkan verir ki, yeni nəsil siyasətçilər özlərini ifadə etsinlər. Azərbaycanın və bütün regionun inkişafına töhfə versinlər”.**



Bunu israilli ictimai xadim, “News Wall Israel” qəzetinin redaktoru Yuri Laqunin “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında deyib.

Onun sözlərinə görə, Azərbaycan yeni dövrə qədəm qoyur. Seçkilər bu dövrdə hakimiyyətin legitimliyini nümayiş etdirəcək: “Vətəndaşın iradəsi ilə formalaşan dövlətin gələcəyi həmişə müsbət dinamikaya malik olur. Hökumətin və vətəndaş cəmiyyətinin sabitliyi iqtisadi inkişaf üçün əsasdır. Harada ki, təlatümlər, iğtişaşlar yoxdur, oraya mütləq şəkildə maliyyə və investisiyalar axır. Bu, aksiomdur. Seçkilər buna əla zəmanətdir. Təbii ki, bu, həm də dövlət üçün böyük məsuliyyətdir. Amma əminəm ki, Azərbaycan bunun öhdəsindən çox yaxşı gələcək”.

***XQ***

# Piter Teys: Suveren ölkədə seçkilər demokratiyanın qarantıdır

**“Milli Məclisə seçkilər Azərbaycanın bütün ərazilərində nəzarəti təmin etdikdən sonra ilk parlament seçkiləridir. Bu baxımdan parlament seçkiləri indiki və gələcək nəsillər üçün regional sabitlik və insan hüquqlarının müdafiəsi, həmçinin Azərbaycanın suverenliyinin qorunması üçün vacibdir”.**



Bunu ABŞ-nin eksperti, Avrasiyada beynəlxalq münasibətlər və geosiyasət üzrə tədqiqatçı Piter Teys deyib. O qeyd edib ki, Azərbaycan son iyirmi ildə böyük iqtisadi və sənaye inkişaf yolu keçib: “Parlament seçkiləri demokratik təsisatların necə fəaliyyət göstərməsinin əsl nümunəsidir. Bakı bütün dünyaya nümayiş etdirir ki, qanunvericilik orqanlarına seçkilər suveren ölkədə çiçəklənən demokratik prosesin və azad seçkilərin qorunmasının açarıdır. Demokratik prinsiplər, dini tolerantlıq və multikulturalizm Azərbaycanın çiçəklənən bir dövlət kimi formalaşması üçün əsas amillərdir”.

***XQ***

# Seçki xəbərləri



## Yaşı 100-ü keçmiş 3 seçici var

“63 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi üzrə 51331 seçici 51 seçki məntəqəsində səs verəcək. Seçicilərin 43425 nəfəri Hacıqabul, 7906 nəfəri isə Kürdəmir rayonu üzrə qeydiyyatdadırlar”. Bunu “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında 63 saylı Hacıqabul–Kürdəmir Dairə Seçki Komissiyasının sədri Məhəmməd Hacıyev deyib. Onun sözlərinə görə, dairə üzrə ilk dəfə səs verəcək gənclərin sayı 755-dir. “Yaşı 100-dən yuxarı 3 seçici qeydiyyatdadır. Onların üçü də Hacıqabul rayon sakinidir”, – DSK sədri bildirib.

## Sərbəst səsvermə üçün zəruri şərait yaradılıb

“Xaçmaz şəhər seçki dairəsində seçkiyə hazırlıq prosesi qanuna uyğun şəkildə həyata keçirilir”. Bunu “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında 57 saylı Xaçmaz Şəhər DSK-nın sədri Bəhram Ömərov deyib.

“Dairə üzrə 48 seçki məntəqəsi və 50 minə yaxın seçici var. 400-dən çox gənc ilk dəfə səs verəcək. 700-dən artıq müşahidəçi qeydiyyatdan keçib. 8 nəfər deputatlığa namizəddir. Onlar seçicilərlə görüşmək üçün açıq və qapalı məkanlarla təmin ediliblər”, – DSK sədri bildirib.

## Dünya azərbaycanlıları seçkiləri yaxından izləyirlər

“Ukrayna daxil olmaqla dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar Milli Məclisə seçkiləri yaxından izləyir. Namizədlərin qeydə alınması prosesində beynəlxalq seçki prinsiplərinə əməl olundu. Hazırda davam edən seçkiqabağı təşviqat kampaniyasında qeydə alınmış namizədlərə yaradılan bərabər şərait Azərbaycanın demokratik seçki ənənəsinin göstəricisidir. Bu ənənə səsvermə prosesinin də tam şəffaf və azad şəkildə keçiriləcəyinə əminlik yaradır”. Bunu “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun (UABD) Jitomir nümayəndəliyinin sədri Rac Qasımov deyib.

## 554 gənc ilk dəfə səs verəcək

“117 saylı Oğuz-Qəbələ-Şəki seçki dairəsi 3 rayonun bir hissəsini əhatə edir. Seçki dairəsinin inzibati ərazisi üzrə 64 seçki məntəqəsi fəaliyyət göstərir. Bu məntəqələrin 40-ı Oğuz, 20-si Qəbələ, 4-ü isə Şəki ərazisində yerləşir”. Bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında 117 saylı DSK-nın sədri Rəsul Cəfərov deyib. O bildirib ki, dairədə 54 min 690 seçici qeydiyyata alınıb. İlk dəfə səs verənlərin sayı 554 nəfərdir. Ən yaşlı seçicinin 99 yaşı var.

***İ.HƏSƏNQALA***
***XQ***

**Coğrafi mövqeyinə görə Azərbaycan Şərqi Asiyadan Avropaya (Şərq–Qərb), eləcə də Rusiya və Şimali Avropadan Cənubi Asiyaya (Şimal–Cənub) gedən nəqliyyat yollarının kəsişməsində yerləşir. Yeni geosiyasi şəraitdə bu nəqliyyat arteriyaları beynəlxalq iqtisadi əməkdaşlığın inkişafında xüsusi önəm daşıyır.**

Belə bir şəraitdə Cənubi Qafqazın bir sıra ölkələri, eləcə də qonşu regionlar (Azərbaycan, Türkiyə, İran, Rusiya) öz ərazilərində təkcə regional deyil, həm də dünya səviyyəli nəqliyyat və logistika qovşaqlarının yaradılması üçün müxtəlif layihələr həyata keçirirlər. Bu layihələrdən biri də Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizidir. Dəhliz Avrasiyanın nəqliyyat infrastrukturunun ən mühüm hissəsidir. Marşrut Şərq–Qərb (Çin–Avropa İttifaqı) istiqamətində Avrasiya nəqliyyat xətlərinin əksəriyyəti ilə birləşdirildikdən sonra iştirakçı ölkələrin inkişafında mühüm rol oynayacaq.

Bu barədə rusiyalı nəqliyyat eksperti İrina Fedorovskaya deyib: “Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi Süveyş kanalına alternativ olmaqla Hindistandan Rusiya və Avropaya, eləcə də əks istiqamətə tranzit yük daşımaları üçün əlverişli imkan yaradır. Onun ən mühüm quru hissəsi Rusiya, Azərbaycan və İran ərazisindən keçir.

# Şimal–Cənub Dəhlizi yenidən gündəmdədir



Hazırda bu dəhlizlə daşımaların əsas hissəsi yük maşınlarından istifadə etməklə həyata keçirilir. Yaxın illərdə dəmir yolu ilə də yük daşımaların həcminin artacağı gözlənilir. Çünki 2023-cü ilin mayında Rusiya və İran arasında dəhlizin Astara–Rəşt dəmir yolu hissəsinin tikintisi üçün İrana 1,3 milyard avro məbləğində kredit ayrılması haqqında hökumətlərarası saziş imzalanıb. Bu layihənin həyata keçirilməsi yüklərin digər nəqliyyat növləri ilə yanaşı, dəmir yolu ilə fasiləsiz daşınmasını təmin edəcək və daşıma qabiliyyətini ilk dövrlərdə 15 milyon tona çatdıracaq”.

İ.Fedorovskaya daha sonra bildirib ki, bazar həcminin artırılması, logistika və konteyner xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması, Xəzər regionunda daşımaların təhlükəsizliyinin yüksəldilməsi, dəhlizin inkişafında iştirak edən ölkələr arasında konstruktiv dialoqun aparılması və yeni logistikanın qurulması nəticəsində marşrutun yükgötürmə qabiliyyəti 2030-cu ildə 30 milyon ton, 2035-ci ildə isə 35 milyon ton olacaq.

Rusiyalı nəqliyyat ekspertinin sözlərinə görə, dəhlizlə beynəlxalq yükdaşımaların artması proqnozları bu marşruta marağı artırır. Eyni zamanda, region ölkələri və inkişaf etmiş dövlətlər dəhlizə əsas alternativ nəqliyyat marşrutu kimi yanaşırlar. Cənubi Asiya ölkələri, Yaxın Şərqin monarxiyaları da Azərbaycan ərazisindən keçən və Rusiya üçün həyati əhəmiyyət kəsb edən bu dəhlizə maraq göstərirlər. Çünki layihədə iştirak edən hər bir ölkə qazanclı çıxacaq. Məsələn, dəhlizin formalaşmasında iştirak edən Azərbaycan öz məhsullarını ixrac etməklə yanaşı, tranzit gəlirlər də əldə edəcək. Proqnozlara əsasən, respublikamızın gəliri ilk dövrlərdə, təqribən, 4 milyard dollara çata bilər.

Bu beynəlxalq layihə həm də yeni xidmət növlərinin açılmasına, iş yerlərinin yaradılmasına, ölkənin büdcəsinə əlavə gəlirin gəlməsinə və iqtisadi inkişafa böyük təkan verəcək.

İ.Fedorovskayanın sözlərinə görə, Ermənistan da bu proseslərdən kənarda qalmaq istəmir. Yəqin ki, bu ölkənin baş nazirinin “Dünyanın kəsişməsi” nəqliyyat layihəsi indi yaxşı xatırlanır. Paşinyana görə, layihə Ermənistan, Türkiyə, Azərbaycan və İran arasında kommunikasiyaların inkişafını nəzərdə tutur, həm də İran ərazisindən keçməklə Hindistanla, xüsusən də qovşaq sayılan Çabahar limanı ilə kommunikasiya əlaqələrini gücləndirməyə imkan verir.

Layihə çərçivəsində Ermənistanda yeni nəqliyyat infrastrukturunun yaradılması planlaşdırılır ki, bunun üçün bütün avtomobil və dəmir yolları şəbəkəsinin təmiri və ya yenidən qurulması, boru kəmərlərinin, yeraltı kabellərin və elektrik xətlərinin çəkilməsi tələb olunur. Eyni zamanda, çox vacib olan bütün nəqliyyat infrastrukturu Ermənistanın yurisdiksiyası çərçivəsində fəaliyyət göstərməlidir.

Layihəni hazırlayanların fikrincə, Ermənistanın gələcəkdə modernləşdirilmiş nəqliyyat sistemi Xəzər dənizini Aralıq dənizi ilə, Fars körfəzini isə Qara dəniz limanları ilə birləşdirməyə imkan verəcək nəqliyyat marşrutlarında mühüm həlqə ola bilər. Bəs onu reallaşdırmaq üçün Ermənistanın nəqliyyat infrastrukturu və maliyyə imkanları varmı?

İrəvan, ilk növbədə, Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinə qoşulmalıdır. Bu ölkənin layihəyə cəlb olunması, xüsusilə Qarabağdakı müharibədən sonra Hindistan və İran rəsmiləri tərəfindən fəal şəkildə təbliğ edilir. Avrasiya İnkişaf Bankının İnteqrasiya Araşdırmaları Mərkəzinin rəhbəri Aleksandr Zaboyev bununla bağlı qeyd edib ki, logistika ilə bağlı aşkar problemlərə baxmayaraq, Ermənistan marşrutu İran və Hindistan üçün siyasi səbəblərə görə lazımdır: “Bu, Tehran və Nyu-Dehliyə tədarükləri şaxələndirməyə və Bakının artan rolunu azaltmaqla regiondakı rollarını gücləndirməyə hesablanıb. Hindistan bununla həm Çinin “Bir kəmər, bir yol” layihəsinə layiqli alternativ yaratmağa, həm də Pakistanla rəqabət aparmağa çalışır. Eyni məqsədlə Hindistan İranın Çabahar dərin dəniz limanına 600 milyon dollardan çox sərmayə qoymağa razılaşıb. Limanın inkişafı ona İslamabadla rəqabət aparmağa imkan verəcək. Bundan əlavə, Rusiyaya da Çinlə gücü tarazlaşdırmaq üçün güclü Hindistan lazımdır”.

A.Zaboyev saha sonra deyib ki, Hindistanın maraqlarına baxmayaraq Ermənistanın layihəyə qoşulması heç də asan deyil. Bu sahədə kifayət qədər problem var: “İrəvan layihənin həyata keçirilməsinin perspektivlərini və faydalarını başa düşür, lakin logistika və infrastrukturla bağlı problemlər mövcuddur. Digər tərəfdən layihənin maliyyələşdirilməsi üçün böyük məbləğdə maliyyə lazımdır. İnvestisiya yatırmaq istəyən isə yoxdur. Müvafiq infrastruktur olmadığı halda nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması vəziyyəti xilas etməyəcək. Fakt budur ki, yolların açılması Ermənistanın avtomatik olaraq regional layihələrə qoşulacağı anlamına gəlmir, çünki o, infrastruktur baxımından hələ kifayət qədər inkişaf etməyib”.

Rusiya Federasiyasına gəldikdə isə, bu ölkə şübhəsiz ki, alternativ nəqliyyat dəhlizlərinin inkişafında maraqlıdır. Hazırda Rusiya Şimal–Cənub Dəhlizinin bir hissəsi olan və Ermənistan ərazisindən keçən yol marşrutunun dördüncü mərhələsinin tikintisinə 150 milyon dollar ayırıb. Ermənistana 7 kilometrlik Kacaran tunelinin tikintisi üçün isə 200 milyon dollar kredit verəcək. Bu kredit ayırmaları, ilk növbədə, Moskvanın İrəvanı siyasi təsir altında saxlamaq istəyindən irəli gəlir.

Hazırda İrəvanla Moskva arasında münasibətlər qeyri-sabitdir. Cənubi Qafqazda zəifləmiş mövqeyini gücləndirmək üçün layihədə daha fəal iştirak etmək istəyən Rusiyanın onu gələcəkdə maliyyələşdirmək üçün vəsaiti yoxdur. Xüsusilə dəmir yolunun yenidən qurulması böyük xərc tələb edir. Onu işlək vəziyyətinə gətirmək üçün ən yaxşı halda 8 ildən çox vaxt lazımdır.

Beləliklə, Ermənistanın Şimal-Cənub Beynəlxalq Dəhlizinə qoşulması və onun bu ölkədə işlək vəziyyətə gətirilməsi üçün çox illər lazımdır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Cənubi Qafqazda siyasi sərgərdanlıq

**II MƏQALƏ**

**Bizi prinsipsiz siyasətlər, vicdansız zövqlər... məhv edəcəkdir.**

**Mahatma QANDİ**

### Geosiyasi risk

Siyasi-diplomatik səbatsızlıq və sərgərdanlığın regional miqyasda geosiyasi risklər yaratdığı nəzəriyyədə tam qəbul edilir. Praktikada isə bunu təsdiq edən çoxlu sayda nümunələr vardır. Mənzərəni dərk etməyi qəlizləşdirən siyasi sərgərdanlıqla (daxili məntiqə əsaslanmayan və xarici təsirlər atılan siyasi-diplomatik addımların bir-birini təkzib etməsi və regional maraqlara uyğun olmaması anlamında) meydana gələn risk faktoru arasında birbaşa əlaqənin görünməməsidir.

Bu, prinsipial bir məqamdır və çox zaman insanları çaşdırır. Məsələn, deyək ki, hər hansı hərbi təxribat və ya kütləvi etirazlar arasında rəsmi İrəvanın Zəngəzura xarici hərbi kontingent yerləşdirməsi və ya "3+3"-ə "alternativ" təklif verməsi arasında əlaqəni əksəriyyət görməyə bilər. Deməli, burada dövlətin atdığı siyasi-diplomatik addımın mövcud geosiyasi mühitə təsir mexanizmləri ilə cari mənzərənin formalaşması arasında daxili bağlantıları görmək gərəkdir. Bu da ayrıca elmi problemdir.

"Geosiyasi risk" anlayışının əlamətlərinə kompleks nəzər salsaq, həmin kontekstdə situasiya bir qədər aydın olar. Siyasi-elmi ədəbiyyatda geosiyasi riskin bir neçə tərkib hissələrini vurğulayırlar. Onlara dövlətin xarici qüvvə tərəfindən fəth edilməsi riski, daxili qüvvələrin təsiri ilə dövlətin dağılması riski, suverenliyin azalması riski (dövlətin öz maraqlarını beynəlxalq aləmdə müdafiə edə bilməsi dərəcəsinin azalması), siyasi risk... Onu da vurğulayırlar ki, geosiyasi risklər zərərvermə özəlliyinə görə strateji və qlobal xarakterlidir. Bu baxımdan geosiyasi riskləri bəzən "fundamental risklər" adlandırırlar. Buradan daha aktual bir faktorla geosiyasi riskin əlaqəsi meydana çıxır – "fors-major" situasiyalarla onun bağlantısı.

### "Fors-major" vəziyyətlər

"Fors-major" latınca "vis maior" adlanır. Mənası "aşılmayan ali güc"dür. Yəni geosiyasi aspektdə fors-major hadisələrin məntiqi və gedişiatından asılı olmayan (buna görə də həmin anda izah edilə bilməyən), gözlənilmədən meydana çıxan (buna elmdə "spontan" deyirlər) və real zaman çərçivəsində həll edilmə üsulu aydın olmayan vəziyyətdir. O, özündə fövqəladəlilik, qarşısı alınmayan, aşıla bilinməyən və daha təhlükəlisi həmin vəziyyəti yaradanın ağlı və iradəsindən asılı olmayan xüsusiyyətləri ehtiva edir. Bu mənada da fors-major özündə risk faktoru daşıyır.

Bundan başqa, regional miqyasda fors-major vəziyyətinin müxtəlif təzahür formaları ola bilər. Məsələn, geniş miqyaslı yanğınlar, epidemiyalar, hər hansı strateji obyektin sıradan çıxması (məsələn, Metsamor AES-in sıradan çıxması və ya çıxarılması), müxtəlif iri qəzalar (su sistemində, enerji şəbəkəsində, nəqliyyat-daşıma və loqistikada və s.), havanın kəskin dəyişməsi ilə nəqliyyatda ciddi problemlərin yaranması, kütləvi xaos, hərbi əməliyyatlar, informasiya təxribatları və s.




Şişirtməsiz deyə bilərik ki, Ermənistanın II Qarabağ savaşından sonra atdığı-siyasi diplomatik addımlar yuxarıda vurğulanan hər bir risk faktorunun potensial qaynağıdır. Rəsmi İrəvan müəyyən müddətə Azərbaycanın böyük zərbələrindən sonra öz qınında büzüşsə də, havadarları onu "ayaq üstə qoymaq" işinə girişdilər. Və tədricən ona ürək-dirək verərək müəyyən təxribaçı addımlar atmağa və süni diplomatik manevrlər etməyə təhrik etdilər.

Erməni siyasi şüurunun tarixən və mahiyyətcə təxribatçı, səbatsız və sərgərdan olması, mentalitetlərində əsl müstəqilliyə nifrətin bəslənməsi, onlara bu yola asanlıqla düşməyə psixoloji və duyğusal əsas verdi. O zamandan aydın idi ki, rəsmi İrəvan danışıqlar salonunda bürüşə-bürüşə ağılının hiyləgər qatında olan məkrli planından imtina etməmişdir.

İndi Fransa, ABŞ, İran, qismən Almaniya və Hindistan şikəst erməni siyasi-diplomatik şüuruna müxtəlif "dayaqlar" verirlər. Nəticəsi isə Cənubi Qafqazda fors-major vəziyyətinin hər bir yerli ölkənin "qapısının ağzında peyda olmaq" ehtimalının artmasıdır. Məhz bu baxımdan rəsmi İrəvanın sərgərdan siyasəti bütövlükdə regionu yeni risklərin ağuşuna atmaq həddinə çatmışdır!

### Erməni siyasi sərgərdanlığı

Erməni siyasi-diplomatik addımları həmişə öz primitivliyi və qondarmalığı ilə fərqlənmişdir. Bu, onların siyasi şüurunun, bir qayda olaraq, realpolitikadan uzaq olması ilə bağlıdır. Mahiyyətcə, erməni siyasi-diplomatik özəlliyi realpolitika sahəsində ola bilməz. Çünki, o, heç zaman real siyasi və geosiyasi mənzərənin məzmun və mahiyyətinə əsaslanmır. Əsasən özlərindən uydurduqları məntiqsiz, tarixsiz və perspektivsiz situasiyalara görə fəaliyyət göstərirlər. Lakin indi bu fəaliyyətin regional miqyasda daha ciddi təhlükələri meydana çıxır.

Məsələnin mahiyyəti ondan ibarətdir ki, Ermənistandan qaynaqlanan siyasi-diplomatik sərgərdanlığın ünvanı birdir – II Qarabağ savaşından sonra Cənubi Qafqazda yaranmış geosiyasi konstuktivizmi məhv etmək! Bu, faciə deyildir, lakin ona dəstək verən bir sıra güclü dövlətlərin (Qərb və Hindistan) və regiona yaxın böyük güclərin (Rusiya və İran) sona qədər konstruktiv qətiyyət nümayiş etdirməmələri "erməni sabununun köpüyünü şişirdir"! Faciəvilik və təhlükəlilik bununla bağlıdır! Əks halda, erməni siyasi-diplomatik sərgərdanlığı ancaq "ürək bulandırmaq" imkanındadır.

Deməli, erməni siyasi-diplomatik səbatsızlığı və sərgərdanlığı reallıqda bir sıra güclü dairələrin geosiyasi manipulyasiya sahəsində mövcuddur. Ayrıca, siyasi faktor kimi qara qəpik qədər təsiri yoxdur. Əgər xaricdən havadarlıq olmasa, rəsmi İrəvanın dedikləri heç erməni cəmiyyəti üçün təsirli deyildir. Onda müəyyən siyasi qənaətlər əldə etmək olar.

Hər şeydən öncə, erməni siyasi sərgərdanlığının fəaliyyət miqyası aydınlaşmalıdır. İndiki mərhələdə o fəaliyyət məzmunca Azərbaycanla sülh müqaviləsinin imzalanması məsələsinin sərhədlərini aşmır. Rəsmi İrəvanın zahirən müxtəlif sferalara aid olan gedişləri son nöqtədə sülh müqaviləsinin imzalanmasına manea yaratmaq məqsədində birləşir. Bura Avropanın "mülki müşahidəçiləri", ermənilərin haqları və təhlükəsizliyinin təmini, Rusiyaya qarşı müəyyən təzyiqlərə cəhd edilməsi, KTMT-nin qaralanması, Zəngəzur məsələsi ilə bağlı qondarma addımlar, "3+3"-ün həyata keçməsinə mane olan süni şərtlərin qoyulması, intensiv silahlanma və xarici hərbi kontingentin Ermənistan ərazisində mövcudluğunun təmin edilməsi daxildir.

Bu təzahür formalarının hər biri müəyyən reallaşma mexanizminə əsaslanır. Erməni siyasiləri öncə məsumluq görüntüsü yaratmağa çalışırlar. Bunu onlara Qərbdəki ağaları öyrətdilər. Yəni sözdə özünü demokratik və barışcıl kimi göstər.

Fikir verirsinizsə, son iki ildə N.Paşinyan "Ermənistan sülh tərəfdarıdır" cümləsi ilə başlayır və sonra keçir ikinci addıma. İkinci addımın da mənbəyi Qərb "demokratik" və "liberal" diplomatiyasının fəndgirliyidir (Rusiya və İran bir qədər fərqli ritorika və fəaliyyət üsulundan istifadə edirlər, ona görə də İrəvanın siyasi-diplomatik xüsusiyyətlərindən "Qərbiyi" gəlir).

İkinci addımda, adətən, "Ermənistanın dövlətçiliyi, müstəqilliyi və suverenliyi" nağılı və eyni zamanda, "erməni hüquqlarının təmin edilməsi zərurəti gəlir. Burada onlar bir məntiqi boşluğu doldura bilmirlər – qarşı tərəfin də eyni haqlara sahib olması və onların da mütləq surətdə ödənməsi zərurəti!

Bu iki addımın fonunda erməni siyasi-diplomatik riyakarlığı və absurd layihələr təklifləri başlayır. Absurd layihələr təkliflərinin də üç aspekti özünü göstərir.

### Erməni layihələrinin absurdluğu

Bu mərhələ siyasi və geosiyai baxımdan həllediciidir. Çünki sözdə deyilənlərin "əməli təsdiqi" məqsədi daşıyır. Məsələn, Ermənistan rəhbərliyi regional miqyasda kommunikasiyaların açılması tərəfdarı kimi görünmək üçün zahirən pis görünməyən, amma praktiki və geosiyasi hədəfi zərərli olan layihə irəli sürmüşdür. Adını ya "yolların kəsişməsi", ya "dünyaların kəsişməsi", ya da "sülhün kəsişməsi" qoymuşdur. Bu "dünyalar", "yollar" və ya "sülh" harada kəsişir, bilirsinizmi? Bilirik, Azərbaycanın təklif etdiyi Zəngəzur dəhlizindən kənarda. Guya əsl "dünyalar", "yollar" və "sülhlər" Zəngəzurdan kənarda mövcuddur və ona görə də hamı erməni layihəsini dəstəkləməlidir. Erməni "layihəsi"ndə digər qondarma məqam Hindistan və İranın da buna qoşulması gözləntisi ilə bağlıdır.

Başqa mexanizm regional geosiyasi konfiqurasiya məsələsi ilə əlaqəli özünü göstərir. Rəsmi İrəvan sözdə deməsə də, əməldə Azərbaycanın təklif etdiyi "3+3" formatını qəbul etmir. Orada Rusiya və Türkiyənin iştirakını istəmir. Əvəzində Qərbin iştirakını nəzərdə tutan hansısa formula üstünlük verir.

Nəhayət, üçüncü mexanizm son zamanlar daha ucadan bağırmaqla erməni hüquqlarının təmin edilməsi ilə əlaqəlidir. Bu istiqamətdə o dərəcədə həyasız, məntiqsiz və birtərəfli danışırlar ki, ciddi izaha belə ehtiyac qalmır. Guya, kimlərsə fəallaşmışdır və Qarabağdan könüllü köçən erməniləri geri qaytarmağa başlamışdır. "Ermənilər fəallaşmışlar"mış! Bunun fonunda Azərbaycan təmkinlə tam məntiqi, ədalətli, sivil arqument ortaya qoyur – Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın hüquqları və öz yurdlarına qayıtmaları Bakı üçün prioritet məsələdir! Və tam əminəm ki, ermənilər dərhal səslərini kəsirlər. Ona görə ki, onlar tarixən haqq və ədalətdən qorxmuşlar!

Əgər vurğulanan məqamları geosiyasi risk kontekstində ümumiləşdirsək, görərik ki, erməni siyasi sərgərdanlığı Cənubi Qafqazda ən azı üç istiqamətdə riskləri meydana gətirməkdədir. Təsadüfi və kənar iradənin təsiri ilə atılan addımlara hansı donu geyindirsən də, real nəticəsi eynidir – regional miqyasda riskləri artırır! Bu da faktiki olaraq risk mənbəyi olan ölkənin ciddi zərər görməsi ilə nəticələnə bilər. Rəsmi İrəvan "oturduğu budağı" kəsməklə başqasına zərər verdiyini düşünürsə, çox yanılır. Hər kəsdən öncə dövlət kimi öz yolunu bağlayır.

Azərbaycanın xarici siyasəti indiyə qədər regional miqyasda konstruktiv rolunu yerinə yetirə bilmişdir. Bundan sonra da belə olacağına inam vardır. Lakin regionda geosiyasi risklərin artması ciddi fəsadları ola biləcək prosesdir. İndi onun qarşısı alınmalı və təhlükə neytrallaşmalıdır. Bu prosesdə regionun bütün dövlətlərinin fəal iştirakı şərtdir! Çünki söhbət bütövlükdə regional geosiyasi mənzərədən gedir. Burada dövlətlərin hər biri öncə bir suala cavab tapmalıdır: Biz sabit, təhlükəsiz və inkişaf edən regionda yaşamaq istəyirik, yoxsa, əsrlərdir davam edən qarşıdurmalar, təhdidlər, risklər mühitində qalmağa üstünlük verirk? Çox şey bu suala kimin hansı səmimiyyətlə cavab axtarışları ilə bağlıdır!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Erməni millətçiliyinin təməl prinsipləri

**(əvvəli qəzetin 16, 17 avqust saylarında)**

### Hayların irqçilik doktrinası

Erməni millətçiliyi müxtəlif insan irqləri arasındakı bioloji fərqliliklərin toplu halında və ya fərdi olaraq ortaya çıxdığını iddia edir. Bir irqin (əksəriyyətlə öz irqinin) başqalarından üstünlüyünə və onlara hökm etməyə haqqı olduğuna duyulan inanc doktrinada öz ifadəsini tapır (xüsusən Dağlıq Qarabağ və digər Azərbaycan rayonlarının işğalından sonra ermənilər qazandıqları "qələbələri" onların üstün irqdən olduqlarına bağlamışdılar). Deməli, 3 əsr əvvəl Venesiyada əsasən kitablar və qəzet-jurnal nəşr edib ermənilərin toplu halında yaşadıqları bölgələrə göndərərək onları başqalarından fərqli olmağa inandıran mxitarizm öz işini görmüşdür.

Öz etnik mədəniyyət dəyərlərini tək meyar olaraq təyinetmə (etnik mərkəziyyətçilik), fərqlilik qorxusu (zenofobi) əsasında yaradılmış bir millətçilik sistemi idi və ideoloji düşüncə olaraq yalnız erməni millətinə aid idi. İrqlər arasında birləşmələrə və əlaqələrin olmasına qarşı çıxmaq və millətçilik kimi anlayışları da özündə ehtiva edirdi. Onu ictimai ayrı-seçkiliyin, irqlər arasında fərqliliklərdən soyqırıma qədər gedə bilən bir doktrina halına gətirib çıxarmaq üçün ermənilərə iki-üç əsr yetərli oldu və indi bu milli ayrı-seçkilik anlayışı erməni dövlətinin doktrinasına tamamilə uyğundur. Bu sistemə görə isə erməni irqçiliyi öz qanını daşıyan, eyni dili danışan və eyni soydan gələnlərin başqa soylardan gələnlərin aşağılanması hesab edilir.

Avropalıların Amerikanı kəşf etməsindən sonra, Afrika mənşəli xalqları kölə adı altında alıb satışa çıxaran, özünə tabe edən amerikanlar başda olmaqla irqçi anlayışı o vaxt normal qarşılansa da, indi mənfi qiymətləndirilir. Özlərini başqalarından fərqli görmək isə Ermənistanda bu gün normal haldır. Erməni irqi ayrı-seçkiliyinə aid yüzlərlə misal çəkmək mümkündür. Hayların tarixçisi Aleksandr Varpetyanın "Erməni xalqının arilərdən doğuşu" məqaləsində bu xəstə təxəyyüllü erməniyə görə, "Arilər 20 min il əvvəl "Erməni dağlar dünyasında" (belə bir ifadə işlədilir) yaranmağa başlamış və onlar Kiçik Asiyadan Yaponiyaya qədər ərazidə iz buraxmışdır. Atları əhliləşdirən, qoyunçuluğu da inkişaf etdirən arilər–ermənilər olmuşlar. Erməni dilində olan "Ayrutsi" kəlməsi də o zamandan qalmışdır. "Arman", "erməni" kəlmələri də o zamandan qalmışdır. Ari sözündən "Ayrarat" (Ararat) törəmişdir və s.

Daha sonra bu adam iddia edir: "Arilərə aid edilən "Ram" önünə bir "A" əlavə edilməsilə "Aram" kəlməsi ortaya çıxmışdır. "Arat" isə guya, Ari dilində "Allahın oğlu" deməkdir. Ermənistanda "Arustam" kişi adı var, farslarda bu " Rustam"dır. Bundan da görünür ki, farslarla ermənilər eyni kökdən gəlirlər. Xristianlığı da, buddizmi də arilər yaratmışlar".

Bu "xəstələrdən" biri olan Varpetyan "Alamani" (Almaniya) adını da armani (erməni) adı ilə başlamağa çalışır. Almanları da farslar, hindlilər kimi ermənilərin əmioğlusu aldlandırır və erməni millətçi şairlərdən olan Paruyr Sevakdan bir misal da çəkir: "Dünyada sizin əvvəlinizin məhsulu olan digər ermənilər də vardır". Bu ermənilər isə ari ermənilərdən törəmiş yunanlardır, almanlardır, basklardır, farslardır, kürdlərdir, hindlilər, ruslardır. Sonra Varpetyan ustalıqla "ari irq"in, yəni ermənilərin yayılma coğrafiyasını "cızır". Onların bir hissəsi Kiçik Asiyaya yayılmış, bir hissəsi isə necə olmuşsa Avropaya getmişdir. Yerlərdə, qonşulardan heç kəsə, heç bir millətə qarışmadan



(ali-ari irqidirlər axı!) kiçik qruplar halında yaşamışlar. Əsas məskənləri Mərkəzi Asiya olmuşdur, Hindistana gələrək burada bəzi millətlərin yaranıb formalaşmasında üstün rol oynamışlar.

Varpetyanın sözündən belə çıxır ki, hind və farslar ermənilərlə qohumdur. Arilər Xəzər dənizindən üzüyuxarı Rusiyaya getmələri nəticəsində ruslar içərisində də "toxum səpmişlər". Nəticəyə baxın: Böyük Ermənistanla Rusiyanın yaxın münasibətləri qandan gəlir. Sən demə, erməni ari irqi rusların da millət kimi yaranmasında və yetişməsində mühüm rol oynamışdır. Hindistanda yayğın olan "Ram" və ya "Ran" adı arilərə verilən ümumi addır. Bu adı Ermənistanda "Rant" və ya "Hrant" olaraq tələffüz etmişlər. "Ram" və ya "Ran" ilk "ari" lərdir. Onun fikrincə, Arilər Şərqdə kök salandan sonra onları Avropanı xilas etməyə gətirmişlər. Almanlar, yunanlar, yəhudilər, kürdlər, basklar arilərdir. Əlbəttə bunlardan daha öncə isə erməni arilər farsları, hindləri və rusları ariləşdirmişlər. Baxın bu gün ermənilərin işinə kim yarayırsa onlar arilərdir. Amma onlar yalnız erməni arilərdən törəyənlərdir, yəni ikinci sort arilərdir...

Göründüyü kimi, burada türklərin adı belə çəkilmir, həmin tarixlərdə dünyanın ən qüdrətli imperiyalarını yaratmış türklər sanki heç olmamışlar. Ermənilərin bu sayaq tədqiqatları ciddi elmi ictimaiyyətdə gülüş doğursa da və onun heç bir elmi əsasının olmadığı kəskin şəkildə tənqid edilsə də "bu tədqiqatlar" dövlət səviyyəsində yürüdülməkdədir. Şərqdə, İslam coğrafiyasında özünün mənfur hərəkətləri ilə təklənəcəyindən qorxan Ermənistan milli ideologiyasına bunları da əlavə etməyi unutmur. Hindlilərin, farsların və rusların ari irqindən gəldiyini deməklə bu ölkələri özünün müdafiəçisinə çevirmək istəyir.

Avropada isə almanların ətəyindən yapışır. Yəhudiləri "arilərdən" saymayan Varpetyan onları digər millətlərin (yəqin ki, türklərin) casusu adlandırır. Yunanlara gəlincə deyir ki, erməni-yunan işbirliyi dünyaya nümunədir.

**(ardı var)**

*Qafar ÇAXMAQLI,*
*XQ-nin Türkiyə müxbiri*

# Avropanın Azərbaycan qazına tələbatı artır

(əvvəli 1-ci səhifədə)

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən bu il avqustun 1-dək 641,4 milyon ton neft (kondensatla birlikdə), 449,5 milyard kubmetr qaz hasil edilib. AÇG-dən 594,4 milyon ton neft, 224 milyard kubmetr qaz hasil olunub. "Şahdəniz"dən isə 225,5 milyard kubmetr qaz, 47 milyon tona yaxın kondensat hasil edilib. Bu yataqlardan indiyə kimi 639,5 milyon ton neft (kondensatla birlikdə), təxminən, 160,7 milyard kubmetrə yaxın qaz ixrac olunub.

Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, hesabat dövründə Azərbaycanın magistral qaz kəmərləri ilə 23 milyard 869 milyon kubmetr qaz nəql edilib. Qazın nəqlinin 56,2 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz Boru Kəməri vasitəsilə həyata keçirilib. Bu kəmərlə 13 milyard 423,3 milyon kubmetr (2023-cü ilin 7 ayı ilə müqayisədə 5,4 faiz çox) qaz ötürülüb.

Azərbaycanın təbii qaz ixracının indiki vəziyyətini əks etdirən yuxarıdakı rəqəmlər ölkəmizin enerji sahəsinin inkişafının neft hasilatından təbii qaz istehsalına uğurla keçidini göstərir. Prezident İlham Əliyevin müsahibələrinin birində diqqətə çatdırdığı aşağıdakı fikirlər də bunun bariz ifadəsidir: "Bizim enerji sahəsinin inkişafı neft hasilatından təbii qaz istehsalına keçid edib. Bununla yanaşı, bizim neft hasilatımız və ixracımız hələ də bir çox ölkənin enerji təhlükəsizliyinin bir hissəsidir. Dörd il öncə 3500 kilometr uzunluğunda inteqrasiya edilmiş qaz boru kəmərlərindən ibarət olan Cənub Qaz Dəhlizinin başa çatdırılması Azərbaycana özünün qaz təchizatının coğrafiyasını genişləndirmək imkanı yaratdı".

Qeyd edək ki, Cənubi Qafqaz Boru Kəməri ilə Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" qaz-kondensat yatağından hasil edilən qaz Azərbaycana, Gürcüstana və Türkiyəyə çatdırılır. Bu kəmər 2006-cı ilin sonlarında istismara verilib və "Şahdəniz" yatağının I mərhələsi çərçivəsində hasil edilən qaz nəql edilməyə başlanıb. 2018-ci ilin yayından isə "Şahdəniz" yatağının ikinci mərhələsi çərçivəsində hasil edilən qazın genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri ilə Türkiyəyə – TANAP kəmərinə təhvil verilməsinə başlanılıb.




TANAP konsorsiumunun yaydığı bəyanatda adıçəkilən kəmərin Türkiyə və Avropanın enerji təchizatının strateji təhlükəsizliyinə mühüm töhfə verməkdə davam etdiyi bildirilib. Qeyd olunub ki, Cənub Qaz Dəhlizinin ən mühüm həlqəsini təşkil edən və 2018-ci il iyunun 30-dan etibarən kommersiya qazının tədarükünün həyata keçirildiyi TANAP ilə nəql olunan qazın həcmi 60 milyard kubmetrə yüksəlib.

Məlum olduğu kimi, Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən biri olan TANAP Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində hasil edilən qazı Gürcüstan–Türkiyə sərhədindən Türkiyənin qərb sərhədinə nəql edir. Yeri gəlmişkən, Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə xidmət edən "Cənub Qaz Dəhlizi" layihəsi 2011-ci ilin yanvar ayında həyata vəsiqə qazanıb. Prezident İlham Əliyev və Avropa Komissiyasının sədri Manuel Barrozu arasında Cənub Qaz Dəhlizi haqqında Bakıda imzalanmış Birgə Bəyannamədə Azərbaycan "Cənub Qaz Dəhlizi" layihəsinə əsas töhfə verən və onu həyata keçirən ölkə kimi göstərilib. Eyni zamanda, sözügedən sənəddə genişləndirilmiş Cənubi Qafqaz Boru Kəmərini, Trans–Anadolu Qaz Boru Kəmərini (TANAP) və Trans–Adriatik Qaz Boru Kəmərini (TAP) özündə birləşdirən Cənub Qaz Dəhlizi Marşrutu XXI əsrin layihəsi adlandırılıb.

2011-ci il oktyabr ayının 25-də Türkiyənin İzmir şəhərində "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında təbii qazın Türkiyə Respublikasına satışı və Azərbaycan Respublikasından gələn təbii qazın Türkiyə Respublikasının ərazisi vasitəsilə tranziti haqqında və təbii qazın Türkiyə Respublikasının ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair" saziş imzalanıb. 2012-ci il iyun ayının 26-da isə İstanbul şəhərində "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair" sazişə imza atılıb. Beləliklə də, "Şahdəniz" yatağının ikinci işlənmə mərhələsi çərçivəsində hasil ediləcək təbii qazı Avropa bazarlarına çatdıracaq Trans-Anadolu ixrac boru kəməri layihəsi ilə bağlı hüquqi bazanın yaradılması təmin olunub.

2015-ci il martın 17-də qardaş ölkənin Qars şəhərində TANAP-ın təməlqoyma mərasimi keçirilib. Bununla da, boru kəmərinin inşasına start verilib. 2018-ci il iyunun 12-də Əskişəhərdə Cənub Qaz Dəhlizinin mühüm hissəsi olan Trans–Anadolu Boru Kəmərinin açılışı olub. Həmin ayın 30-da ilk kommersiya qazının bu kəmərlə Türkiyəyə nəqlinə başlanılıb. Noyabrın 30-da isə TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib.

Dövlətimizin başçısı çıxışlarının birində Avrasiyada və əsasən də Avropada enerji tərəfdaşlarımızın sayının getdikcə çoxaldığını və Azərbaycan qazına olan tələbatın artdığını bildirib. Həmçinin ölkəmiz Rusiyaya qarşı sanksiyalara görə, Avropa qitəsinə qaz təchizatının artırılması ilə bağlı Avropa Komissiyasının müraciətinə müsbət cavab verib və bunu əməli fəaliyyətində təsdiqləyib. Bu cür işgüzar əlaqələrin bundan sonra da davam etdiriləcəyi nəzərdə tutulub.

Yeri gəlmişkən, bu məqamda diqqəti nüfuzlu neft-qaz sənayesi nəşri olan "Oilprice"in saytında dərc edilən "Azərbaycan Avropaya təbii qaz ixracını artırır" sərlövhəli məqaləyə yönəltmək istərdik. Məqalənin müəllifi, məşhur jurnalist Tsvetana Paraskova yazır ki, Rusiya–Ukrayna müharibəsinin başlamasından və Rusiya qazının Avropaya tədarükünün azalmasından sonra Azərbaycan Avropa İttifaqı (Aİ) üçün digər tədarükçülərdən daha çox qaz alınmasının alternativ mənbələrindən birinə çevrildi.

T.Paraskova Azərbaycan Energetika Nazirliyinin məlumatına əsaslanaraq vurğulayıb ki, yanvar-iyun aylarında Avropaya 6,4 milyard kubmetr Azərbaycan qazı ixrac edilib ki, bu da ümumi ixracın 51 faizini təşkil edib. Türkiyəyə 5 milyard kubmetr həcmində ixrac xaricə ümumi qaz satışının 39 faizini, Gürcüstana 1,3 milyard kubmetr həcmində ixrac isə 10 faizini təşkil edib.

Energetika naziri Pərviz Şahbazov bildirib ki, 2024-cü ilin yanvar-iyun aylarında Azərbaycan təbii qazının xaricə satışının ümumi həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə təxminən 6 faiz artıb. SOCAR və "TotalEnergies"in bir il əvvəl hasilata başladığı "Abşeron" qaz-kondensat yatağında bu dövrdə ilkin hasilat sxemi (EPS) mərhələsində 1,5 milyard kubmetrdən çox qaz hasil edilib.

Nazirin sözlərinə görə, "Abşeron" yatağının mərhələli işlənməsi və illik hasilatın 1,5 milyard kubmetrdən 6 milyard kubmetrə çatdırılması planları ölkənin, eləcə də Azərbaycanın regional və Avropa tərəfdaşlarının enerji təhlükəsizliyinin təmin edilməsinə mühüm töhfədir.

Prezident İlham Əliyev Azərbaycanın neft-qaz sənayesinin inkişafını diqqətdə saxlamaqla yanaşı, bərpaolunan enerji layihələrinə də mühüm önəm verdiyini bildirərək Xəzər dənizində zəngin "yaşıl" enerji potensialına malik ölkə olduğumuzu, artıq 10 qiqavat həcmində külək və günəş enerjisi layihələrinə dair müqavilə və anlaşma memorandumları imzaladığımızı bildirib və bunun respublikamıza yanacaq enerjisindən bərpaolunan enerjiyə rahat keçid imkanı yaratdığını, bununla da Avropa istehlakçılarının da "yaşıl enerji" ilə təmin ediləcəyini vurğulayıb.

## İlin əvvəlindən ölkədə 45,4 min iş yeri açılıb



**Dövlət Statistika Komitəsindən redaksiyamıza bildirilib ki, bu ilin yanvar–iyun aylarında yaradılmış iş yerlərinin 95,1 faizi qeyri–dövlət sektorunda açılıb. Bunun 79,4 faizi Bakı şəhərinin, 1,7 faizi Naxçıvan Muxtar Respublikasının, 18,9 faizi digər regionların payına düşür.**

Yeni məşğulluq obyektlərinin 4,7 faizi Abşeron–Xızı, 2,1 faizi Gəncə–Daşkəsən, 2,1 faizi Lənkəran–Astara, 1,9 faizi Quba-Xaçmaz, 1,8 faizi Şirvan–Salyan, 1,3 faizi Qazax–Tovuz, 1,2 faizi Qarabağ, 1,2 faizi Şəki–Zaqatala, 1,0 faizi Şərqi Zəngəzur, 0,9 faizi Mərkəzi Aran, 0,4 faizi Mil–Muğan, 0,3 faizi isə Dağlıq Şirvan iqtisadi rayonlarında yaradılıb. Açılmış iş yerlərinin 10,6 faizi yeni, 88,4 faizi mövcud, 0,3 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 0,7 faizi isə digər tədbirlər üzrə yaradılıb.

Bununla yanaşı, bu ilin birinci yarımili ərzində ölkədə 4,5 min iş yeri bağlanıb. Bunun 48,6 faizi qeyri-dövlət sektorunun payına düşüb. İş yerlərinin 51,7 faizi müəssisə və təşkilatların fəaliyyətlərinin dayandırılması, 48,3 faizi isə fəaliyyət göstərən müəssisə və təşkilatlarda aparılan ixtisarlar ilə əlaqədar bağlanıb.

## Qarabağda tikinti–quruculuq bu il daha da genişlənib

### 6 ayda 2 milyard manatlıqdan çox inşaat işləri görülüb



**2024-cü ilin yanvar–iyun ayları ərzində azad edilmiş rayonlarda tikinti quraşdırma işlərinə 2 milyard 56 milyon 358 min manat vəsait sərf edilib.**

Dövlət Statistika Komitəsinin bununla bağlı hesabatında bildirilir ki, həmin göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 22,8 faiz və ya 381 milyon 790 min manat çoxdur. Belə ki, 2023-cü ilin yanvar-iyun ayları ərzində azad edilmiş rayonlarda tikinti quraşdırma işlərinə 1 milyard 674 milyon 568 min manat vəsait yönəldilib.

Xatırladaq ki, hesabat dövründə ən çox vəsait Kəlbəcər (438,5 milyon manat), Ağdam (308,5 milyon manat) və Laçın (242,4 milyon manat) rayonlarına ayrılıb.

Qeyd edək ki, bu dövrdə tikinti–quraşdırma işlərinə sərf edilən vəsait 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə Qubadlı 2,6 dəfə, Ağdamda 2,3 dəfə, Şuşada isə 52 faiz artırılıb.

## Hacıqabulda da Günəş Elektrik Stansiyası qurulacaq



**İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) ilə Azərbaycanda alternativ enerji stansiyalarının qurulması ilə ixtisaslaşan "AGAS Group" MMC arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.**

İZİA-dan aldığımız məlumata görə, memorandumu agentliyin İdarə Heyətinin sədri Seymur Adıgözəlov və "AGAS Group" MMC-nin direktoru İlkin Quliyev imzalayıblar. Sənədə əsasən, ölkəmizdə keçiriləcək COP29-a və "yaşıl" enerji islahatlarına dair öhdəliklərin dəstəklənməsi məqsədilə İZİA-nın idarəçiliyində olan Hacıqabul Sənaye Parkında yerləşən obyektlərin alternartiv enerji ilə təmin edilməsi nəzərdə tutulur.

Memorandum çərçivəsində "AGAS Group" MMC tərəfindən Hacıqabul Sənaye Parkında 2,5 MVt-lıq Günəş Elektrik Stansiyasının (GES) qurulmasının texniki-iqtisadi əsaslandırması hazırlanacaq. Növbəti mərhələdə GES-in qurulması və sənaye parkının "yaşıl" enerji ilə təmin olunması planlaşdırılır.

## Neft şirkəti qazmanı 14 faiz artırıb

**Cari ilin ikinci rübündə Dövlət Neft Şirkəti tərəfindən 21,6 min metr qazma işləri həyata keçirilib.**

Şirkətdən verilən məlumata görə, cari ilin ikinci rübündə qazma işləri ötən ilin analoji dövrü ilə müqayisədə 14,7 faiz artıb. Qurumun müstəqil şəkildə və ya əsas payçı qismində istismar etdiyi yataqlardan 1,9 milyon ton neft, 1,8 milyard kubmetr qaz hasil olunub. Ölkə üzrə qaz hasilatı ötən illə müqayisədə təxminən 5,2 faiz artaraq ikinci rüb üzrə 12,5 milyard kubmetr təşkil edib. Ümumilikdə isə cari ilin ikinci rübü üzrə Azərbaycanda 7,2 milyon ton xam neft hasil olunub.

*Səhifəni hazırladı: Vaqif BAYRAMOV XQ*




## "Yaşıl dünya" naminə həmrəylik



# Beynəlxalq təşkilatlarda COP29-un Azərbaycanda keçirilməsi fəal dəstəklənir

**İqlim dəyişikliyi məsələlərinə həsr olunan və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC) çərçivəsində keçirilən COP beynəlxalq tədbiri ilk dəfə Berlində reallaşıb. Həmin vaxtdan indiyədək dünya ölkələrinin hökumət və vətəndaş cəmiyyəti nümayəndələrinin, beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdikləri COP-un 28 sessiyası keçirilib.**

Son illərdə iqlim dəyişikliyi mövzusu ərzaq təhlükəsizliyi məsələləri ilə daha sıx əlaqələndirilir ki, bu da COP və BMT-nin Dünya Ərzaq Proqramı (WFP) arasındakı əməkdaşlığı xüsusilə əhəmiyyətli edir. Buna görə də adları çəkilən təşkilatların birgə səyi aclıqla mübarizəyə və eləcə də iqlim dəyişikliyinin təsirlərindən əziyyət çəkən həssas regionlarda milyonlarla insanın həyat şəraitini yaxşılaşdırmağa yönəldilir.

Uğurlu əməkdaşlığın parlaq nümunələrindən biri olan "Aktivlər üçün ərzaq yardımı" (FFA) proqramı isə iqlim risklərinə məruz qalan icmalarda dayanıqlı gəlir mənbələrinin yaradılması və ərzaq təhlükəsizliyinin yaxşılaşdırılması üçün müəyyən qüvvələri birləşdirir. FFA proqramında deqradasiyaya uğramış torpaqların bərpası, suvarma sistemlərinin yaradılması və dayanıqlı kənd təsərrüfatı təcrübələrinin tətbiqi məsələləri mühüm önəm daşıyır.

Uğurlu təşəbbüslərdən biri də "Ərzaq təhlükəsizliyi üçün iqlim adaptasiyası və dayanıqlılığı" (CARFS) proqramıdır. Bu proqram çərçivəsində WFP və COP iqlim dəyişikliyinə ən həssas olan ölkələrdə ərzaq sistemlərinin dayanıqlığını artıran adaptasiya tədbirlərini hazırlayaraq həyata keçirir. Məsələn, Malavidə kənd təsərrüfatının uyğunlaşdırılması layihəsi çərçivəsində dayanıqlı kənd təsərrüfatı üsullarının tətbiqi və su təminatının yaxşılaşdırılması sayəsində məhsuldarlığı xeyli artırmaq və quraqlıq səbəbindən məhsul itkisi riskini azaltmaq mümkün olub.

COP-un əməkdaşlığı yalnız WFP ilə məhdudlaşmır. Belə ki, COP və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) arasında əməkdaşlıq dayanıqlı kənd təsərrüfatının təşviqi və iqlim dəyişikliyi şəraitində ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

COP və FAO arasında əməkdaşlığın ən mühüm nümunələrindən biri iqlim dəyişikliklərini nəzərə alan dayanıqlı kənd təsərrüfatını təşviq edən "İqlimə dayanıqlı kənd təsərrüfatı" (CSA) təşəbbüsüdür. Proqram ekstremal hava şəraitinə qarşı dayanıqlığı artıran, su resurslarının idarəsini yaxşılaşdıran və biomüxtəlifliyi qoruyan metodların tətbiqini əhatə edir. Nepalda bu təşəbbüs sayəsində fermerlər təsərrüfatlarını dəyişən iqlim şəraitinə uyğunlaşdıraraq məhsuldarlığı artırmağa və təbii fəlakətlərdən itkiləri azaltmağa müvəffəq olublar.

Yeri gəlmişkən, Azərbaycan 1995-ci il oktyabrın 20-də FAO-ya üzv seçiləndən sonra bu təşkilat respublikamızda milli, regional və qlobal xarakterli layihələr həyata keçirir. Həmin layihələr əsasən, kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin gücləndirilməsi, aqrar potensialın artırılması, resursların idarə edilməsi, heyvan və bitki xəstəliklərinə qarşı mübarizə, təchizat və digər müvafiq sahələrdə texniki yardımları nəzərdə tutur.

FAO-nun respublikamızdakı layihələri Azərbaycan Hökumətinin prioritetləşdirilmiş ehtiyaclarına dair müraciətlərinə uyğun olaraq texniki əməkdaşlıq proqramlarına əsaslanır. Azərbaycan Hökuməti və FAO 2009-cu ildən etibarən respublikamızda kənd təsərrüfatının inkişafı sahəsində sözügedən təşkilat tərəfindən mümkün texniki yardımın göstərilməsi məqsədilə ölkəmizə yardım proqramının hazırlanması prosesini davam etdirir. Bu məqsədlə Azərbaycan üçün FAO-nun milli orta müddətli prioritetlər üzrə çərçivə sənədi hazırlanaraq müntəzəm surətdə əsas prioritetlərə uyğun olaraq yenilənir.

Xatırladaq ki, FAO-nun əsas məqsədi Azərbaycanda qida məhsullarının və tullantıların idarə olunması sahəsində layihələrə dəstəyə yönəlib. İndiyədək hər iki tərəf kənd təsərrüfatı sahəsində 60-dan yuxarı birgə layihə reallaşdırıb, bunun nəticəsində isə respublikamızın bölgələrində kənd təsərrüfatı mühiti, o cümlədən qida təhlükəsizliyi yaxşılaşıb.

Burada bir məqamı da diqqətə çatdırmaq istərdik. Belə ki, müxtəlif ərzaq məhsullarının tullantıları da ətraf mühitin çirklənməsinə səbəb olur. Artıq məsələnin ciddiliyi bir sıra beynəlxalq təşkilatları narahat etməyə başlayıb. FAO-nun eksperti Pərviz Əliyev də ərzaq sahəsində itki və tullantıların (Food Loss & Waste - FLW) dünyada istixana qazlarının ümumi emissiyasında 10 faiz təşkil etdiyini bildirib.

Eksperti deyib ki, ərzaq sahəsində itki və tullantıların azaldılması FAO-nun qlobal istiləşməni 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmaq üçün Yol Xəritəsinin həyata keçirilməsi üzrə fəaliyyəti üçün prioritetdir. P.Əliyevin sözlərinə görə, qlobal ərzaq sistemi istixana qazlarının ümumi emissiyasının 21-37 faizinə cavabdehdir.

Ərzaq istehsalçılarının torpaqdan, sudan, enerjidən, yəni ən mühüm, bəzən isə bərpaolunan bilməyən resurslardan istifadə etdiklərini diqqətə çatdıran P.Əliyev onu da vurğulayıb ki, ərzağa diqqətli münasibət olmadıqda isə bu, bütün iqtisadi sistemə, eləcə də iqlim dəyişikliyinə təsir edir.

"Hazırda FAO ərzaq sahəsində itki və tullantıları azaltmaq üçün Qlobal Ərzaq Təşəbbüsü (Global Food Initiative) həyata keçirir. Bir sıra hallarda tullantıları azaltmaq mümkün olmadıqda emal və texnologiya yolu ilə işlənmiş ərzaq məhsullarından faydalı qeyri-ərzaq məhsulları yaradılmalıdır", – deyə ekspert əlavə edib.

P. Əliyev həmçinin qeyd edib ki, FAO ölkəmizdə fermerlər üçün layihələr həyata keçirir və bu layihələr artıq fermer təsərrüfatlarının gəlirlərini, ümumilikdə, 15 faiz (ildə 3,6 milyon ABŞ dolları) artırmağa imkan verib.

Bundan əlavə, "Qlobal Torpaq Tərəfdaşlığı" (GSP) COP və FAO-nun birgə səylərini birləşdirdiyi daha bir uğurlu təşəbbüsdür. Bu layihə ərzaq təhlükəsizliyini təmin edən torpaq resurslarının mühafizəsi və bərpasına yönəlib. GSP çərçivəsində torpaqların eroziyasının qarşısının alınması, onların məhsuldarlığının artırılması və torpaqlarda karbonun saxlanması kimi tədbirlər həyata keçirilib ki, bu da iqlim dəyişikliyinin təsirlərinin yumşalmasına kömək edir. Uğurlu tədbirlərin nümunələrini Latın Amerikasının ölkələrində görmək olar, burada torpaq idarəçiliyinin yaxşılaşdırılması məhsuldarlığın artmasına və istixana qazı emissiyalarının azalmasına gətirib çıxarıb.

COP-un Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (IFAD) ilə əməkdaşlığı da iqlim dəyişikliyinin təsirlərinə ən çox məruz qalan kənd icmalarının yaşayış şəraitinin yaxşılaşdırılmasına yönəlib. Bu baxımdan ən uğurlu təşəbbüslərdən biri IFAD tərəfindən COP-un dəstəyi ilə hazırlanmış "Kiçik Fermer Təsərrüfatları üçün Adaptasiya Proqramı"dır (ASAP). Bu proqram kiçik fermerlərə dəyişən iqlim şəraitinə uyğunlaşmağa kömək etmək məqsədi daşıyır. Məsələn, Nigerdə ASAP fermerlərə aqromeşəçilik üsullarını və suya qənaət sistemlərini tətbiq etməyə kömək edib ki, bu da kənd təsərrüfatının quraqlığa davamlılığını xeyli yaxşılaşdırıb və məhsuldarlığı artırıb.

Daha bir layihə – "Kənd Yerləri Üçün Bərpa Olunan Enerji" (RERL) IFAD tərəfindən COP ilə birgə həyata keçirilir və kənd ərazilərində bərpaolunan enerji mənbələrinin inkişafına yönəldilir. Nepalda bu təşəbbüs günəş panelləri və mini hidroelektrik stansiyaların tətbiqini təmin edib ki, bu da uzaq kəndlərin enerji ilə təminatını reallaşdırıb və kənd təsərrüfatının inkişafını sürətləndirib. Bərpaolunan enerji mənbələrindən istifadə, həmçinin istixana qazı emissiyalarını azaltmağa və yerli sakinlərin yaşayış şəraitini yaxşılaşdırmağa imkan verib.




## "Karbon kreditləri" şəffaf və ədalətli olmalıdır

**İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının keçmiş vitse-prezidenti, COP-un büro üzvü Andrey Boiç mediaya müsahibəsində bildirib ki, Paris razılaşmasının 6-cı maddəsi iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlığa və inkişaf etməkdə olan ölkələrə maliyyə dəstəyi göstərməyə əlverişli şərait yaradır. Onun fikrincə, bu maddə iqlim dəyişikliyinə dayanıqlı uyğunlaşma üçün hazırda səmərəli olan ən yaxşı mexanizmdir.**



COP-un büro üzvü daha sonra qeyd edib ki, bütün üstünlüklərə baxmayaraq, bu konsepsiyanın həyata keçirilməsi üçün həlli bir sıra problemlər mövcuddur: "İki ən böyük problem istixana qazlarının azaldılmasının düzgün hesablanması və "karbon kreditləri"ndən necə istifadə ediləcəyi barədə qərar vermək-dir".

A.Boiçin fikrincə, karbon kreditlərinin ticarətində şəffaflıq da vacib məsələdir. Bunun üçün tərəflər arasında tam inamın olması zəruridir. Ekspert bunu onunla izah edir ki, atmosferə məhdud həcmdə qaz buraxılması üçün kvota olan karbon kreditlərindən istifadə Paris razılaşmasının 6-cı maddəsinə uyğun gəlmir, bu, "yaşıl" niyyətlər adı altında vəsaitlərdən qeyri-məqsədyönlü istifadə kimi həyata keçirilə bilər. Bununla belə, A.Boiç tərəflər arasında ən vacib razılaşmanın artıq əldə olunduğunu qeyd edib. "Bu, artıq iqlim dəyişikliyi və ciddi addımlar atmağa ehtiyac olması ilə bağlı heç bir şübhənin olmamasına dair razılaşmadır. Fikir ayrılıqları isə tədbirlərin görülməsi sürəti və iqlimə dəymiş ziyana görə məsuliyyətlə bağlıdır".

## "Təkrar emal fəalları"nın təmizlik aksiyası

**COP29 könüllüləri Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində "Təkrar emal fəalları" adlı növbəti təmizlik aksiyası keçiriblər. İştirakçılar sakinlərlə ictimai təmizliyə riayət olunması və şəhər parklarının ekoloji durumunun sağlamlaşdırılmasının əhəmiyyəti barədə maarifləndirici söhbət aparıb, həmçinin bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29 konfransı barədə sualları cavablandırıblar.**



Ekoloji tədbir "Təmiz Şəhər" ASC-nin tullantılarının idarəedilməsi fəaliyyəti ilə tanışlıqla davam edib. Aksiya çərçivəsində toplanan 230 kilodan çox həcmdə müxtəlif növ bərk məişət tullantıları könüllülər tərəfindən Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavoduna növbəti təkrar emal üçün təhvil verilib.

Daha sonra müəssisədə olan könüllülər tullantıların düzgün idarə edilməsi təcrübələri, müasir emal sistemləri və tendensiyalar haqqında faydalı məlumatlar əldə edib, tullantıların çeşidlənməsi, yerləşdirilməsi və zərərsizləşdirilməsi proseslərini əyani izləyə biliblər.

Qeyd edək ki, bu aksiya COP29 iqlim dəyişmələri problemləri, eləcə də onların həlli yolları istiqamətində ictimaiyyətin məlumatlılığının artırılmasına yönəlmiş davamlı fəaliyyətin bir hissəsidir.

## Türkiyənin "yaşıl" kənd təcrübəsi

**İslam Əməkdaşlıq Təşkilatının İqtisadi və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsinin (COMCEC) layihəsi çərçivəsində Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin "İqliməsaslı ağıllı kənd təsərrüfatı" (CSA) layihəsi uğurlu hesab edilərək təsdiq olunub.**



Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, sözügedən layihə çərçivəsində qlobal iqlim dəyişikliyinin kənd təsərrüfatı məhsuldarlığına, ərzaq təhlükəsizliyinə və kənd əhalisinin həyat tərzinə mənfi təsirlərinin azaldılması, beynəlxalq təcrübədə istifadə olunan innovativ qaydaların tətbiqi sahəsində müzakirələrin aparılması və müvafiq səfərlərin həyata keçirilməsi məqsədilə Azərbaycan və Türkiyənin kənd təsərrüfatı ekspertləri arasında təcrübə mübadiləsi proqramı təşkil edilib.

Proqramla bağlı Kənd Təsərrüfatı Nazirliyinin torpaqdan istifadəyə nəzarət şöbəsinin müdiri Firudin Tağıyev və həmin şöbənin aparıcı məsləhətçisi Samirə Qurbanlı cari il avqustun 4-11-də Türkiyə Respublikasının Ankara şəhərində olublar.

Səfər çərçivəsində aparılan müzakirələrin əsas mövzusu hazırda iqlim dəyişikliyinin Türkiyənin aqrar sektoruna yaratdığı riskləri azaltmaqla bağlı kənd təsərrüfatında iqlim dəyişikliyinə uyğunlaşma (adaptasiya) və təsirlərin yumşaldılması (mitiqasiya) istiqamətində fəaliyyətləri öyrənmək, eləcə də uğurlu nəticələrin ölkəmizdə də tətbiqi məqsədilə əməkdaşlığı gücləndirmək mövzusu olub.

Sonda "İqliməsaslı ağıllı kənd təsərrüfatı (CSA)" layihəsinin iki qardaş ölkənin iqlim dəyişikliyinə daha dayanıqlı kənd təsərrüfatı sisteminin qurulmasında mühüm rol oynayacağı vurğulanıb yaraq və bu kimi layihələrin davam etdirilməsinin zəruriliyi bildirilib.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***




# Azərbaycan tarixinin bir əsrlik mətbu salnaməsi

**(əvvəli qəzetin 15, 16, 17 avqust tarixli saylarında)**

## Qəzet nədən və necə yarandı

Fəhlə-kəndli və partiya-hərbi müxbirləri qarşısında "qəzetin həyatımızın güzgüsünə çevrilməsi" üçün konkret vəzifələr qoyulmuşdu. "Qəza müxbirlərinin nəzərinə!" sütununda onlardan tələb olunurdu ki, aşağıdakılara xüsusi diqqət yetirsinlər:

– Xurafata və savadsızlığa qarşı mübarizə aparmaq; ərzaq vergisi yığımı və çöl əkin işləri sahəsində məlumat toplamaq; kənd təsərrüfatının yaxşılaşdırılması; partiya ilə əlaqə və s.

Tərxis olunub kəndə gedən hərbi müxbirlərə də konkret tapşırıqlar verilirdi. Hacı Səlim Səyyahın imzası ilə yazılmış "Hərbi müxbirlər kənddə necə işləməlidirlər?" məqaləsində deyilirdi ki, onların qarşısında çox ciddi və mühüm vəzifələr durur. Onlar qələmlərini yerə qoymamalı, şəhərliləri kənd həyatı ilə tanış etməli, kəndə gələn kimi, ilk növbədə, "Kommunist", "Kəndçi qəzetəsi" və "Yeni fikir" qəzetləri ilə sıx ünsiyyət yaratmalı, abunə kampaniyasında fəal iştirak etməli, yerlərdə divar qəzetlərinin yaradılması üçün öz təcrübələrindən istifadə etməli, kəndliləri divar qəzetləri ilə əməkdaşlığa dəvət etməyə çalışmalıdırlar. Bir sözlə, hərbi müxbir öz təcrübəsindən istifadə edərək kəndli müxbir rolunu ifa etməlidir.

Redaksiya kəndli müxbirləri üçün teztez nəsihətverici məqalələr dərc edirdi. Onlara izah edilirdi ki: "Xırda məsələlər barəsində qəzetə yazı göndərməyin, çünki belələrini divar qəzetlərində də yazmaq olar". Kəndli müxbirlərinə divar qəzetlərinin daha yaxşı tərtibatı üçün əlavə üsul və metodlar barəsində məsləhətlər verilirdi. Müxbirlərə təklif olunurdu ki, kənd həyatının ən ağrılı problemlərindən, kənd təsərrüfatı işlərinin gedişindən, vahid kənd təsərrüfatı vergisindən, kredit birliklərindən və s. barədə yazsınlar. Onlar klublar, qiraət komaları, kənd kooperativində ticarət və s. haqqında yazmaqla kifayətlənməsinlər. "Nə haqqında yazmalı? Qəza və kəndli müxbirlərimizə tapşırıq" adlı məqalədə isə təklif olunurdu ki, "kənd təsərrüfatı vergisinin gedişi və yaz-tarla işlərinə hazırlıqların gedişi" barəsində yazsınlar. Bunun necə yerinə yetirilməsi üsulları da izah edilirdi. Başqa bir məqalədə göstərilirdi: "Kəndli müxbiri şəhərlə kəndin münasibətlərində əlaqələndirici halqədir. Əgər fəhlə müxbiri şəhərdə hər addımda şəhər mədəniyyəti ilə rastlaşır və maariflənirsə, kəndli müxbirinin özü geridə qalmış savadsız kənddə mədəniyyətin və maarifin nümayəndəsi və daşıyıcısı hesab olunur. Bu mənada, kəndli müxbirinin rolu daha böyükdür. Ona görə də kəndli müxbirinə daha çox diqqət yetirilməlidir".

Əgər 1923-cü ilə kimi kəndli müxbirlərinə 2-3 sütun yer ayrılırdısa, 1923-cü ilin noyabrından bu bölmə tam bir səhifəyədək genişləndirilmişdir. Digər tapşırıqlarla yanaşı, kəndli müxbirinə tarixi əhəmiyyət daşıyan əşyaların talan edilməsi faktlarının müəyyənləşdirilməsi və qarşısının alınması üçün tədbirlər görməsi tapşırılırdı. Bu müqəddəs borcu yerinə yetirmək üçün "hər bir qəza müxbiri imkan daxilində onun şəklini fotoya aldırmalı" və ya əgər əşya kiçikdirsə, onu alimlərə və muzeyə vermək üçün redaksiyaya göndərməlidirlər. Bununla bağlı bütün yol xərclərini redaksiya öz üzərinə götürürdü.

## Xalq dilində yazmaq!

AzMİK Rəyasət Heyəti 1921-ci il noyabrın 13-də keçirilmiş iclasında "Azərbaycan füqərası" qəzeti ilə bağlı "qəzetin istər məzmununun, istərsə də ifadə üslubunun yaxşılaşdırılması, xalq dilinə yaxınlaşdırılması, fəhlə və kəndlilərin anladığı, başa düşdükləri səviyyəyə gətirilməsi məqsədilə" qərar qəbul etmişdi.

"Kommunist" qəzeti fəhlə-kəndli müxbirləri hərəkatının genişlənməsindən sonra birbaşa müxbirlərinə müraciət edərək, onlardan öz yazı üslublarını yaxşılaşdırmalarını tələb edirdi. Əvvəllər isə redaksiyaya gələn məktublar əməkdaşların gücü ilə məqalə halına salınırdı. "Qəza müxbirlərinin diqqətinə. Müxbir öz yazısına diqqət yetirməlidir" başlıqlı məqalədə müəlliflərə tövsiyə edilirdi ki, qəzetdə çap olunmuş yazılarını yenidən oxusunlar və üzərində edilmiş düzəlişlərə diqqət yetirsinlər ki, bundan sonra həmin səhvləri təkrarlamasınlar.

Onlara məsləhət görülürdü ki, redaksiyaya göndərdikləri yazıları iki nüsxədə yazıb, birini özlərində saxlasınlar. Yazıları çap olunduqdan sonra hər ikisini tutuşdurub, buraxdıqları səhvləri islah etsinlər. Köhnəlmiş qəliz ərəb və fars sözlərindən isə imkan daxilində az istifadə etsinlər. "Kommunist" qəzeti bununla heç də "redaksiyanın işinin yüngülləşdirilməsi məqsədinin güdülmədiyini" nəzərə çatdırır və bildirirdi ki, "əsas məqsəd vahid qəzet ifadə-təsviri üslubunun" yaradılmasıdır.

Yuxarı partiya instansiyalarında və ayrı-ayrı mətbuat vasitələrində türk dilinin anlaşılmazlığı barədə haray-həşirin qaldırılması məhz bu dövrə təsadüf edir. Qəribə də olsa, bu harayı qaldıranlar həmin dili bilməyən qeyri-azərbaycanlılar idi. Nəriman Nərimanovun "köçəri quşlar" adlandırdığı belə adamlara "harada aş, orada baş" olan intriqaçı Levon Mirzoyan istiqamət verirdi.

1920-ci il sentyabrın 16-da Azərbaycan K(b)P MK-nın təşkilat bürosunun iclasında çıxış edən L.Mirzoyan bəyanat vermişdi ki, "müsəlman nəşrlər bizim üçün anlaşılmaz yarıərəb dilində çıxır". Bu məsələni bir neçə dəfə də dilimizi bilməyən və ara qarışdırmaqda mahir olan S.Kirov qaldırmışdı. Azərbaycan K(b)P MK və BK-da işə keçən L.Mirzoyan dil məsələsini bir neçə dəfə qaldırmışdı. Özünün etiraf etdiyinə görə, o, "türk dilini bilmirdi". Çox güman ki, bu kampaniyanın başladılmasında məqsəd Azərbaycan dilini məişət ünsiyyəti vasitəsinə çevirmək, onu Azərbaycan klassik ədəbiyyatından, öz köklərindən ayırmaq idi.

Belə ziyankar "dilçi ekspertlərə" cavab olaraq "Kommunist" qəzeti Ə.Bədinin (Triniç) imzası ilə yazdığı "Mətbuatımızın vəzifələri" baş məqaləsində bildirirdi ki, "türk dilinin anlaşılmazlığı barəsində çoxlu spekulyativ danışıqlar aparılır. Özü də bu məsələni elə adamlar qaldırırlar ki, onlar bu dil haqqında heç nə bilmirlər. Onlar bircə şeyi bacarırlar: ucadan qışqırıb "karaul!" deyə çağırmağı". Əslində isə burada qorxulu heç nə yoxdur. Bizim qəzetin dilini əvvəllər nəşr olunan "İrşad", "Şəlalə", "Açıq söz" və s. qəzetlərin dili ilə müqayisə etmək tamamilə kifayətdir. Bizim qəzetdə dilimizin inkişaf səviyyəsini görməmək mümkün deyil.

## Fəhlə-kəndli müxbirləri hərəkatı

Rusiyada başlanmış fəhlə-kəndli müxbirləri hərəkatı tədricən Azərbaycanda da yayıldı. Belə ki, 1921-ci ilin yanvarından Bakıda Petroqradda və Moskvada olduğu kimi, yerli və şəhər ədəbi heyətləri yaranmağa başlandı. Amma bu hərəkat çox tez söndü. Fəhlə-kəndli müxbirləri hərəkatının yeni dalğası 1923-cü ildə gücləndi. O zaman qəzetlərin nəzdində fəhlə müxbirləri kursları təşkil olundu. Bu sahədə planauyğun iş yalnız "Kommunist" qəzetində aparılırdı.

Kəndli müxbirləri hərəkatını daha mütəşəkkil miqyasda aparmaq məqsədilə 1923-cü ilin iyulunda qəzetin təşəbbüsü ilə respublika kəndli müxbirlərinin konfransı çağırıldı və bir sıra qəzaların nümayəndələri burada yaxından iştirak etdilər. İştirakçıların bütün yol xərclərini qəzet öz üzərinə götürmüşdü. "Kommunist" qəzetini bu konfransda kəndli müxbirləri Əhməd Əhmədov (Göyçay), Məbud İmamverdiyev (Şəki), Balacayev (Zaqatala), Qasımov (Şəmkir), Əfəndiyev (Ağdaş), Qulam Axundov (Şuşa), Səfər Məmmədov (Qazax), S.Qasımov (Quba), Səfərəli Məmmədov (Salyan) təmsil edirdilər. Konfrans başa çatdıqdan sonra kəndli müxbirləri zavod və mədənləri gəzmiş, "Kommunist" qəzetinin işi ilə tanış olmuşdular.

"Kəndlilərə" adlı məqalədə qəzet yazırdı ki, "kəndli müxbirləri kəndlərə getməli, adamlara yaxınlaşmalı, onların ehtiyaclarını aşkar etməlidirlər. Çünki kəndli əlində məktub gəlib kəndli müxbirlərini axtarmayacaq".

"Kommunist" qəzeti nəzdində fəaliyyət göstərən dinləyicilər kursunda mühazirələr oxumaq üçün əvvəlcə qəzetin əməkdaşları cəlb edilmişdir. 30 may 1925-ci il tarixli Rusiya K(b)PMK-nin "Hazırda yeni qəzet işçiləri kadrlarının hazırlanması bizim milli mətbuatın ən aktual vəzifəsidir" göstərişindən sonra filoloq alimlər, dilçilər, jurnalistlər mühazirə oxunuşuna səfərbər edilmişdilər. Onların arasında fəallığı ilə seçilən Bəkir Çobanzadə, Məhəmmədhəsən Baharlı, Əliəkbər Heydərli, Həbib Cəbiyev, Məmməd Səid Ordubadi, Böyükağa Talıblı, Vəli Xuluflu, Əli Kərimov, Abdulla Şərifov, Zinətulla Nuşirəvanov, Salman Mümtaz, Əhməd Triniçi (Bədi) və b. var idi.

Qəzet xüsusi müxbirlərinin vasitəsilə yerlərdə fəhlə-kəndli müxbirləri hərəkatının yaranması və genişlənməsini dəstəkləyirdi. Bu sahədə pioner olanlardan biri qəzetin Şəki müxbiri Məbud İmamverdiyev idi. O, başqaları üçün də nümunə oldu. Onun rəhbərliyi ilə 1924-cü ilin fevralında Şəkidə "Kommunist" və "Bakinskiy raboçiy" qəzetlərinin qəza müxbirlərinin ilk müşavirəsi keçirildi. "Mətbuatın əhəmiyyəti haqqında və kəndli müxbirlərinin vəzifələri", "İşçi qəzetində nədən və necə yazmalı", "Kəndli müxbirlərinin təqibi və müdafiəsi haqqında" və s. mövzularda məruzələr edildi.

Kəndli müxbirlərinin işini və onların müdafiəsini əlaqələndirmək üçün Məbud İmamverdiyevin sədrliyi və 3 kəndli müxbirinin – Tağıyev, Allahyarov və Rəhimzadənin üzvlüyü ilə kəndli müxbirləri bürosu təşkil edildi.

Az sonra başqa qəzalarda da "Kommunist", "Bakinskiy raboçiy", "Kəndli qəzetəsi" müxbirlərindən ibarət bürolar yaradılmışdı. "Kommunist" qəzetini həmin bürolarda: Ağdamda – Həsənəli Rüstəmzadə, Ağdaşda – İbrahim Xəlil Səfərəlizadə, Göyçayda – Əhməd Əhmədov, Gəncədə – Əli Razi Şəmçizadə, Zaqatalada – Rəsul Hacıxanov, Qazaxda – Səfər Məmmədov, Karyagində (Füzuli) – Şirvan Sadıxov, Lənkəranda – Səfər Məmmədli, Naxçıvanda – Məmməd Rəsizadə, Tovuzda – Qasım Məmmədzadə, Şamaxıda – Məmməd Abbaszadə, Şəmkirdə – Hüseyn Nemətov, Salyanda – Məmməd Səfərli, Şuşada – Qulam Axundov, Bakı qəzasında – Paşa Mehdizadə təmsil edirdilər.

Tədricən bütün qəzalarda kəndli müxbirlərinin sayı o qədər artdı ki, onların haqqında məlumat statistik xarakter almağa başladı. Konkret adların sadalanmasına gəldikdə isə yalnız qəzetin ən fəal xüsusi müxbirlərinin adlarının çəkilməsi ilə kifayətlənməli oluruq: Göyçayda – Əbil Ucarlı, Gəncədə – Əli Razi Şəmçizadə, Ayn Abdullayev, Şuşa və Tərtərdə – Qulam Axundov, Salyanda – Tağı Musayev, Zərdabda – Əbülhüseyn Zərdabi, Qubada – Səfər Aşurlu, Cəbrayılda – H.Ə.Rəhimzadə, Bakı rayonlarında – Almas İldırım, Məmməd Əmənullazadə, Hilal Turanlı, Müseyib Dadaşov, Yunis Hacıyev (sonralar "Kommunist" qəzetinin redaktoru olmuşdur), Mikayıl Abdullayev (sonralar xalq rəssamı), Hafiz Mirzəzadə, Ağasəlim Manaflı, "Krımlı" və b.

"Kommunist" qəzetinin 1924-cü il avqustun sonlarında Bakıda 57, şəhər rayonlarında 197 fəhlə müxbiri, qəzalarda isə 63 kəndli müxbirləri var idi. Qəzetdə fəhlə-kəndli və partiya-hərbi müxbirlərin tam sayı 317 nəfər idi. 1925-ci ildə "Kommunist" qəzetinin 438 müxbiri var idi ki, bunların da 292-si fəhlə müxbiri, 133-ü kəndli müxbiri idi. Həmin müxbirlərdən 7 nəfəri qadın idi.

Əgər 1924-cü ildə redaksiya fəhlə-kəndli müxbirlərindən hər ay 190-200 məktub alırdısa, 1925-ci ildə bu rəqəm 500-750 arasında olmuşdur. 1926-cı ildə 350 fəhlə müxbiri, 500-dən artıq kəndli müxbiri qəzetlə əməkdaşlıq edirdi və onlardan hər ay orta hesabla 1200-1300 məktub alınırdı. 1927-ci ildə isə təkcə kəndli müxbirlərindən hər gün orta hesabla 70-100 məktub alınırdı. 668 fəhlə müxbiri, 850 kəndli müxbiri qəzetlə daimi əməkdaşlıq edirdi. 1925-ci ilin noyabrından 1926-cı ilin aprelinədək "Kommunist" qəzetinin səhifələrində onların 18 min 820 müxbir yazısı dərc olunmuşdu.

1922-ci ildə qəzetdə qəzalardan göndərilmiş 116 kəndli müxbiri yazısı, 1923-cü ildə isə 74 kəndli müxbirinin 404 yazısı çap olunmuşdu. Əgər 1923-cü ilin ikinci yarısında fəhlə-kəndli müxbirlərindən 4 min 160 məktub alınmışdırsa, təkcə 1927-ci ilin 4 ayı ərzində 10 min 60 məktub alınmışdı. Fəhlə-kəndli müxbirləri yazılarını öz adları və ya o dövrlərdə qəbul olunduğu kimi təxəllüsləri ilə imzalayırdılar.

Respublikada fəhlə-kəndli müxbirləri hərəkatının daha da genişləndirilməsində "Kommunist" qəzetinin redaktoru Həbib Cəbiyevin təşəbbüsü ilə çağırılmış I Azərbaycan fəhlə-kəndli müxbirləri qurultayının həlledici rolu olmuşdur. O, əvvəlcə Azərbaycan K(b)P MK-də mətbuat nümayəndələrinin müşavirəsini keçirmiş, qurultaya hazırlıq görmüşdü. Qurultaya hazırlıq müşavirələri Ruhulla Axundovun ümumi sədrliyi ilə 1924-cü il iyunun 18-də keçirilmiş və qərara alınmışdı ki, qurultay sentyabrın 15-dək çağırılsın. Triniç, Rəhmanov, Şahbazov, Çaqin və Qepşteyndən ibarət 5 nəfərlik büro yaradılmışdır. 19 bənddən ibarət tezislər hazırlanmışdı. Qurultay 1924-cü il oktyabrın 2-dən 6-dək keçirilmişdir. Qurultayda 250-dək nümayəndə iştirak etmişdi. Nümayəndələrin yarıdan çoxu qəzaların payına düşürdü.



Fəhlə-kəndli müxbirləri hərəkatı barədə İ.Ə.Eminbəyli məruzə etmişdi. Qurultay aşağı təşkilatlara tövsiyə edirdi ki, yaşlı bitərəf kəndliləri, xüsusilə də yoxsulları və muzdurları kəndli müxbirləri sıralarına qəbul etsinlər.

Kəndli müxbirlərinin savadını artırmaq məqsədilə təklif olunurdu ki, divar qəzetlərinin və mərkəzi və qəza qəzetləri redaksiyalarının nəzdində dərnəklər təşkil edilsin. "Kommunist" qəzeti redaksiyasında "Stalin adına klub" dərnəyi təşkil olunmuş, onun şəhər rayonları üzrə bölmələri yaradılmışdır.

Müxbirlər müsəlmanların istirahət günü olan cümə günlərində toplaşırdılar. Qəzalarda da belə dərnəklər yaradılmışdı. Həmin dərnəklərdə fəhlə-kəndli müxbirlərinə insanlarla ünsiyyət yaratmaq qabiliyyəti, həssaslıq öyrədilirdi. Onlara nədən və necə yazmağı, materialı necə əldə etməyi öyrədirdilər. Təklif olunurdu ki, bir yazıda yalnız bir mövzu əhatə olunsun, dürüst məlumatlara əsaslanılsın, ara sözlərinə inanıb, qələmə əl atmasınlar.

Qurultay fəhlə-kəndli müxbirlərinin yerli və partiya təşkilatları tərəfindən törədilən təqib və özbaşınalıqlardan müdafiə olunması məsələsinə xüsusi diqqət yetirdi. Bunun üçün fəhlə-kəndli müxbirlərinin Azərbaycan bürosu yaradıldı və onun Rəyasət Heyəti seçildi. "Kommunist" qəzetindən büroya Səfər Məmmədli (Lənkəran), Rəyasət Heyətinə isə Əziz Nuri, Məmmədqulu Əlixanov (Azərbaycan bürosunun katibi), Abdulla Şərifov daxil oldular.

Qəzetin səhifələrini təsadüfi materiallardan xilas etmək, eləcə də fəhlə-kəndli müxbirlərində sərbəstliyi tərbiyə etmək məqsədilə klubun nəzdindəki dərnəklərdə onların məruzələri dinlənilirdi. Məsələn, fəhlə müxbiri Əhməd Bədəlzadənin "Türk işçi mətbuatının tarixi" və Qasım Tahirin "Hamilik məsələləri" məruzələri dinlənilmişdi.

Qəzetin həm birlikdə, həm də ayrı-ayrılıqda, bəzən də qəzalar üzrə müşavirə və konfranslarının keçirilməsi ənənə halını aldı. Qəzet qəza müxbirləri üçün zona müşavirələri də təşkil edirdi. Məsələn, 1927-ci il aprelin 21-də Poylu-Dərbənd dəmiryolu xətti boyunca yerləşmiş qəzaların kəndli müxbirlərinin konfransı keçirilmişdir. Burada divar qəzetlərinin sərgisi də təşkil olunmuşdu.

Hələ 1921-ci il fevralın 21-də kəndli müxbirlərinin fəaliyyətini gücləndirmək məqsədilə Azərbaycan K(b)P MK qəza partiya komitələrinə və qəzetlərin redaksiyalarına təsdiq olunmuş təmimnamə göndərilmiş və tələb olunmuşdu ki, kəndli müxbirlərini yerli inzibati və digər ünsürlərin hədə və təzyiqlərindən qorusunlar. Bundan əlavə, qəza işçilərinə kömək məqsədilə 4 mühazirədən ibarət – "Kəndli müxbirləri və onların əsas vəzifələri haqqında"; "Kəndli müxbirlərinin təşkilati məsələləri haqqında"; "Tərbiyə işləri və təqiblərdən müdafiə haqqında"; "Divar qəzetləri haqqında" – "Kəndli müxbirləri hərəkatı üzrə mühazirələr konspekti" nəşr etmişdi.

1927-ci ilin əvvəllərində respublikanın müəssisə, təşkilat və kəndlərində 900-dək divar qəzeti, 10 minədək fəhlə-kəndli müxbirləri nəşri və divar qəzeti, 160-dək fəhlə-kəndli müxbirləri dərnəyi var idi. Fəhlə-kəndli müxbirlərinin sıralarının sürətlə artması və həmin dövrdə partiya və dövlət məmurlarının onları ifşa və tənqid edən müxbirləri açıq təqib etməkdən çəkinmələri onu bildirir ki, o illərdə fəhlə-kəndli müxbirləri hərəkatının inkişafı üçün kifayət qədər əlverişli şərait yaradılmışdı.

Respublika partiya təşkilatları fəhlə-kəndli müxbirləri ilə işin təkmilləşdirilməsinə və onların hərəkatlarının genişləndirilməsinə diqqət yetirirdilər. Məsələn, Azərbaycan K(b)P BK-nın 1927-ci il 30 mart təqdimatı ilə Azərbaycan K(b)P MK Rəyasət Heyəti aprelin 12-də Azərbaycanda fəhlə-kəndli müxbirləri hərəkatı məsələləri üzrə konkret təkliflər olan qərar qəbul etmişdir. Azərbaycan Dövlət nəşriyyatına tapşırılmışdı ki, türk dilində müvafiq ədəbiyyatın nəşrini təşkil etsin.

## Kəndə doğru

O dövrün ən mürəkkəb və çətin məsələlərindən biri dövri mətbuatın kənd yerlərinə çatdırılması idi. Bu məsələ o qədər ciddi idi ki, onun həlli qəzetlərin imkanları xaricində idi. "Kommunist" qəzeti Ə.Bədinin imzası ilə yazılmış "Növbəti vəzifələrimiz" məqaləsində göstərirdi ki, "bu gün əsas çatışmazlıqlarımızdan biri kəndlilərlə normal əlaqənin olmamasıdır. Ona görə də poçt işçilərinin qəzaların mərkəzdən uzaq olması izahatlarını ciddi qəbul etmək olmaz. Bu səbəb deyil. Poçt işçilərini işdə fəaliyyətə gətirmək lazımdır".

Həm poçt işçiləri, həm də yerli hakimiyyət nümayəndələri bəzən elə hərəkət edirdilər ki, onlar cinayətə bərabər idi. Məsələn, Quba qəzasının Rustov icraiyyə komitəsi sovetinin sədri Əsədulla Cəfərzadə milisin köməyi ilə abunəçilər üçün nəzərdə tutulan qəzetin alverçilərə və dükançılara satışını təşkil etmişdi.

Bakı kəndlərinə qəzet gec, bəzən həftədə bir dəfə çatdırılırdı. Bəzi yerlərdə qəzetin çatdırılması o qədər pis təşkil olunmuşdu ki, abunəçilər qəzetin 50-60 nömrəsini birdən alırdılar. Məsələn, Quba qəzasının Xudat dairəsində, Göyçay qəzasında və başqa yerlərdə qəzet pudlarla yığılır və dükanlara göndərilirdi. Bunun əsas səbəblərindən biri Azərbaycanda poçt-teleqraf sisteminin son dərəcə pis təşkil olunması və respublika rəhbərliyinin belə "xırda" işlərlə maraqlanmağa imkanının olmaması idi.

1924-cü ildə Azərbaycanda 55 poçt-teleqraf müəssisəsi, 1 teleqraf və 1 yardımçı idarə, cəmisi 57 müəssisə var idi. Müqayisə üçün deyək ki, həmin dövrdə qonşu Gürcüstanda 164 poçt-teleqraf müəssisəsi var idi. Ona görə də qəzetlər şimal rayonlarına (Quba, Qusar) 4-5 gün gec, cənub (Biləsuvar, Lerik) rayonlarına isə ən yaxşı halda 6-8 və ya daha gec müddətə çatdırılırdı. Respublikanın ən ucqar bölgələri haqqında danışmağa isə dəyməzdi. Bu məsələnin həlli üçün ümumdövlət səviyyəsində iş görmək lazım idi. ZaqMİK, AzMİK və Azərbaycan K(b)P MK-nın köməkliyi ilə 1925-ci ildə qəzalarda 69 yeni oturaq poçt şöbəsi açıldı və yalnız bundan sonra kəndli müxbirlərin yaxından köməkliyi sayəsində vəziyyət bir qədər yaxşılaşdı.

**(ardı var)**

*Elmar MƏHƏRRƏMOV,*
*tarix üzrə fəlsəfə doktoru,*
*AMEA Tarix və Etnologiya*
*İnstitutunun aparıcı elmi işçisi*

## 18 Avqust Sərhəd Qoşunları Günüdür

# Sərhəddən başlanır Vətən!

**Bu gün Dövlət Sərhəd Xidmətinin (DSX) əməkdaşları peşə bayramlarını qeyd edirlər. 1918-ci ildə Azərbaycanda ilk dəfə Poylu sərhəd postu yaradılıb. Düz 105 il əvvəl, avqustun 18-də isə AXC hökumətinin "Azərbaycan Respublikasının gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında" Qanununa əsasən, daha 99 post vasitəsilə sərhədlərimizin mühafizəsi təşkil olunub.**



Ulu öndər Heydər Əliyevin 2000-ci il 16 avqust tarixli sərəncamı ilə avqustun 18-i sərhədçilərin peşə bayramı günü kimi rəsmi status alıb. Daha 2 il sonra isə Milli Təhlükəsizlik Nazirliyinin Sərhəd Qoşunları İdarəsinin əsasında Dövlət Sərhəd Xidməti yaradılıb və Sərhəd Qoşunlarının komandanı təyin edilib. Bu gün DSX çevik, mütəşəkkil, yüksək intizama və döyüş hazırlığına malik, ən müasir silah və texniki vasitələrlə təchiz olunmuş və üzərinə qoyulan vəzifələri şərəflə icra edən mühüm dövlət təsisatıdır.

..."Sərhəd" müqəddəs anlayışdır və aid olduğu ərazinin bütövlüyünü, toxunulmazlığını ehtiva edir. Vətən və dövlət sərhəddən başlanır. Vətən keşikçisi sərhədi namusu kimi qoruyur ki, torpağın üzərində qürurla gəzə bilsin. Yurdun hüdudlarından quşu belə keçməyə qoymur ki, dövlətin bayrağı əlçatmaz olsun, vüqarla dalğalansın. Lazım gələndə bu yolda canından keçir və nəşi bayrağa bükülərək, yaylım atəşləri ilə dəfn edilir.

Hələ1992-ci ilin oktyabr ayının 18-də Naxçıvan Sərhəd Dəstəsində Azərbaycan Respublikası milli sərhədçilərinin ilk andiçmə mərasimi keçirilib. Ulu öndər sərhədçiləri təbrik edərək, deyib: "Siz müstəqil Azərbaycanın sərhədlərinin toxunulmazlığını, respublikamızın ərazi bütövlüyünü təmin edən sərhəd qoşunlarının sıralarında xidmət etməyə başlayırsınız. Siz indi müstəqil Azərbaycan dövlətinə sədaqətlə xidmət etmək andı içdiniz. Bu and müqəddəs anddır". Prezident İlham Əliyev ölkəyə rəhbərlik etməyə başladığı ilk vaxtlardan Ulu öndərin milli sərhəd siyasətini uğurla davam etdirir. Dövlət başçısı sərhədçilərlə çoxsaylı görüşlərində onların müqəddəs işini layiqincə dəyərləndirib.

"Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüş Eldar Məmmədov I Qarabağ müharibəsində şəhadətə yüksəlib. Əmiraslan Əliyev, İntiqam Atakişiyev, Bəhruz Mansurov, Faiq Cəfərov, Eltun İsgəndərov da bu fəxri adla təltif ediliblər.

Sərhədçilərimiz 2020-ci ilin 44 günlük Zəfər salnaməsinə də misilsiz töhfələr veriblər. Xudafərin körpüsünü və Zəngilanın Ağbənd qəsəbəsini düşmən işğalından azad edən Azərbaycan sərhədçiləri Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşanın azad olunmasında da rəşadət göstəriblər. Sərhəd keşikçiləri bir neçə günə 105 kilometr ərazini yağı tapdağından təmizləyiblər. Qazanılmış Zəfər sayəsində 132 kilometrlik Azərbaycan-İran sərhədi, eləcə də daha uzun ərazidə olan Azərbaycan-Ermənistan sərhədi Silahlı Qüvvələrimizin nəzarətinə keçib. Əlbəttə, qurbansız qələbə olmur. Müharibə zamanı DSX-nin 47 hərbi qulluqçusu şəhid olub, neçə nəfər ağır yaralanıb. 176 sərhədçi igidlik nümunəsinə görə müxtəlif ordenlərlə, 5 203 nəfəri isə müxtəlif medallarla təltif edilib. Sonrakı əməliyyatlarda daha 9, Qaraheybət poliqonunda helikopter qəzasında 14 sərhədçi şəhadətə ucalıb.

Müharibədən sonra azad olunmuş ərazilərdə yeni zastavalar yaradılıb, hər birində Azərbaycan bayrağı ucaldılıb, sərhəd boyunca bütün lazımi istehkam, mühafizə işləri görülməyə başlanıb. Bütün bunlar elə də asan başa gəlməyib. Döyüşə-döyüşə irəli getməyin, 30 il erməni faşistlərinin viran qoyduğu ərazilərimizi işğaldan azad edə-edə sərhəd çəkməyin nə qədər çətin olduğunu hər kəs yaxşı bilir.Yeni yaradılmış zastavalarda qaldırılan üçrəngli bayrağın altında Ali Baş Komandana raport verməyin isə necə şərəfli və qürurverici olduğunu sərhədçilərimiz daha gözəl anlayırlar.

Artıq 4-cü ildir ki, sərhədçilərimiz peşə bayramlarını ərazisi bütöv Azərbaycanın qəhrəman müdafiəçiləri kimi ruh yüksəkliyi ilə qarşılayırlar. Quru sərhəd mühafizə dəstələrinin, hərbi dəniz və səma keşikçilərinin, digər struktur bölmələrin hərbçilərinin bu günü fərəhlə bayram etməyə tam haqları var.

Zəfər Yürüşündə fərqlənən 12 nəfər Azərbaycan sərhədçisi "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Bunlar Amin Novruzov, Nail İbrahimli, Azər Yusifli, Şahin Allahyarov (4-ü də ölümündən sonra), eləcə də Elvin Səfərov, Anar Məmmədov, Röyal Quliyev, Şahin Hüseynquliyev, Vüsal Sultanov, Babək Qurbanov, Babək Ələkbərov və İlham Mehdiyevdir. Şəhadətə qovuşanlar daim ehtiramla yad edilir, bu gün sıralarımızda olan canlı əfsanələrsə gənc nəslin vətənpərvərlik tərbiyəsində əsl nümunə kimi urvatda tutulurlar.

Müharibədən sonra cənab İlham Əliyevin azad olunmuş ərazilərdə sərhədçilərlə unudulmaz görüşləri olub. 2021-ci il aprelin 26-da, oktyabrın 5-i, 21-i və 25-də Cəbrayıl, Zəngilan və Qubadlıda Dövlət Sərhəd Xidmətinin hərbi hissələrinin açılışları, yaradılan şəraitlə tanışlıq bu sıradandır. Dövlət başçısının sərhədçilərin ünvanına söylədiyi yüksək fikirlər onları Vətənin keşiyində daha ayıq-sayıq dayanmağa ruhlandırıb.

Bu ilin əvvəlində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Bakıda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hospital kompleksinin açılışında iştirak edib. Xəstələrə ən yüksək səviyyədə çoxfunksionallı xidmət göstərən möhtəşəm şəfa mərkəzində həm müalicələr, həm də uçuş heyətinin, dalğıcların, digər kateqoriyaların yüksək müayinəsi üçün hər cür şərait yaradılıb. Bu, DSX-ya və sərhədçilərə göstərilən diqqətin, qayğının daha bir təzahürü idi.

...Sərhəd qoşunlarından danışarkən II Qarabağ müharibəsində igidliyi və səngərdə gözəl səsli ifası trend olan Xudayar Yusifzadəni xatırlamaya bilmərik. Çünki ölümündən sonra "Azərbaycan Bayrağı" ordeninə, eləcə də Cəbrayılın və Zəngilanın azad olunmasına görə və "Vətən uğrunda" medallarına layiq görülmüş Xudayar da məhz şərəfli sərhədçi adını daşıyıb, DSX Sərhəd Qoşunlarının kiçik giziri olub. 11 il Bərdə şəhərindəki Bülbül adına 1 nömrəli Uşaq İncəsənət Məktəbində təhsil alsa da, əsgərlikdən sonra hərb sənətinə könül verib, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olub. İgidliklə əbədiyyətə qovuşduğu Ağbənd döyüşlərindən 2 gün öncə səngərdə "Vətən yaxşıdır" təsnifini elə oxuyub ki, Əliağa Vahidin sözlərinə bəstələnmiş bu musiqinin yaradıcısı, Xalq artisti Əlibaba Məmmədovun razılığı ilə ifası "Xudayar təsnifi" adlandırılıb.



**Xəzər dənizitək eşqimlə coşdum,**
**Xülyalar içində sanki bihuşdum.**
**Vətən arzusuyla nəğmələr qoşdum,**
**Tufanlar qarşımda dastana döndü...**

Bəli, igidləri dastan yaradan Silahlı Qüvvələrimizin mühüm təsisatı olan DSX, eyni zamanda, böyük hərbi vətənpərvərlik mərkəzidir. Elm və Təhsl, Gənclər və İdman nazirlikləri ilə hazırlanmış birgə plan əsasında müxtəlif məzmunlu tədbirlər həyata keçirilir. Bu məqsədlə sərhəd məntəqələrinə ekskursiyalar, DSX-nin aparatında tələbələrlə görüşlər, "Sərhəd" hərbi-idman oyunları, müxtəlif mövzularda təsviri və tətbiqi incəsənət, musiqi və ədəbiyyat müsabiqələri keçirilir, filmlər çəkilir, kitablar buraxılır.

Bir neçə gün əvvəl – avqustun 15-də DSX-nin birləşmə və hərbi hissələrində gənc əsgərlərin növbəti andiçmə mərasimləri olub. Azərbaycan Sərhəd Mühafizəsinin 105-ci ildönümü ərəfəsində onlar təntənəli şəkildə Vətənə son dərəcə sədaqətli olmaq barədə hərbi andı qəbul ediblər. Sonra DSX-nin rəisi, general-polkovnik Elçin Quliyevin təbriki tədbir iştirakçılarına çatdırılıb. Qəti əminlik ifadə olunub ki, sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini öz üzərlərinə götürən gənc əsgərlər nümunəvi hərbi qulluqçu kimi dövlətə, xalqa və tariximizin ən böyük sərkərdəsi, müzəffər Ali Baş Komandana daim sadiq qalacaq, ərazi bütövlüyü və suverenliyi bərpa edilən Vətənimizin sərhədlərini göz bəbəyi kimi qoruyacaqlar. Mərasimlər gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə yekunlaşıb.

Avqustun 16-da yubiley tədbirləri çərçivəsində şəhid olmuş sərhədçilərin əziz xatirələrinin anılmasına, qazilərimizə diqqət və qayğı göstərilməsinə xüsusi yer verilib. DSX-nın rəhbər vəzifəli şəxsləri İkinci Fəxri xiyabanda və bölgələrdə şəhidlərin məzarları ziyarət ediblər.

Dünən isə Dövlət Sərhəd Xidmətinin rəhbərliyi və şəxsi heyəti Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər. Ulu öndərin və xanımı, akademik Zərifə Əliyevanın, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş Vətən övladlarının xatirəsi anılıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub. İlk sərhədçi Milli Qəhrəman Eldar Harun oğlu Məmmədovun məzarı ziyarət edilib.

Azərbaycan Dövlət Sərhəd Xidmətinin ən böyük amalı, ən vacib missiyası Vətəni qorumaq, dövlət sərhədlərinin quruda, havada və suda mühafizə və müdafiəsini təmin etməkdir. Bu şərəfli işin etibar olunduğu sərhədçi qəhrəmanlarımız onlara əmanət edilən Vətənin keşiyində ayıq-sayıq durmağı yalnız vəzifə öhdəliyi hesab etmirlər. Bu, həm də onlar üçün mənəvi ucalıq və qürur mənbəyidir.

Bayramınız mübarək, Vətən oğulları!

***Əli NƏCƏFXANLI***
***XQ***

## Günün narahatlığı

# Meymunçiçəyi Türkiyəyə də çatdı




**Yay turizminin açdığı geniş qapılar, ölkələrarası gediş-gəlişin artması yoluxucu xəstəliklərin də sürətlə yayılmasına səbəb olub. Son vaxtlar yayılmağa başlayan meymunçiçəyi virusu da ölkə-ölkə "addımlayır", səhiyyə təskilatlarının qarşısında yeni problem kimi baş qaldırır.**

Mütəxəssislər "M poks" adı verilən bu virusun nadir infeksiya mənbəyi olduğunu söyləyirlər. Bildirilir ki, meymunçiçəyi suçiçəyinə bənzəyir. Xəstəlik qızdırma, başağrısı, şişkinlik, bel-əzələ ağrısı və zəifliklə müşayiət olunur.

Ötən gün Türkiyənin Sakarya şəhərində bir nəfər meymunçiçəyi xəstəliyinə yoluxma şübhəsi ilə karantinə alınıb. Bu barədə ölkə mediasının yaydığı xəbərdə bildirilir ki, özündə zəiflik, bel ağrısı, halsızlıq hiss edən Seneqal vətəndaşı həkimə müraciət edib. Afrikalıda meymunçiçəyi virusunun əlamətləri təsdiqlənib və o, xəstəxanaya yerləşdirilib.

Bundan əvvəl Pakistanda da meymunçiçəyinə yoluxma halı qeydə alınıb. 2022-ci ildə Avropada aşkarlanan bu təhlükəli virusa ilk dəfə Amerika Birləşmiş Ştatlarında rast gəlinib. Daha sonra İspaniyada, Portuqaliyada və Böyük Britaniyada yoluxmalar qeydə alınıb.

"M poks" virusunun sürətlə yayıldığı Afrika İttifaqının Səhiyyə Xidməti isə qitədə sağlamlıqla bağlı fövqəladə vəziyyət elan edib. Ümumdünya Səhiyyə Təşkilatı meymunçiçəyi xəstəliyinin yayılmasını fövqəladə hal adlandırıb. Qurumun yaydığı son məlumatda dünyada meymunçiçəyi xəstəliyinə 77 min 264 yoluxma və bu səbəbdən 36 ölüm qeydə alındığı bildirilir. Hazırda yoluxmanın 90 faizi Afrika qitəsində, xüsusən, Konqo və ətraf ölkələrdə müşahidə edilir.

Yeni epidemiyaya həssaslıqla yanaşan Ümumdünya Şəhiyyə Təşkilatı yoluxmanın ötən ilə nisbətən bu il daha sürətlə yayılmasını təhlükəli hal kimi dəyərləndirib. Buna görə də təşkilat bütun ölkələri infeksiya ilə birgə mübarizəyə çağırıb.

Ölkəmizdə meymunçiçəyinə yoluxma qeydə alınmayıb. Ölkə infeksionistləri təhlükəni qabaqlamaq üçün onun yayılma vəziyyətini diqqətlə izləyirlər.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Gəncə "Nizami günləri"nə hazırlaşır

**Hər ilin sentyabr ayında Gəncə şəhərində Azərbaycanın görkəmli şairi, böyük mütəfəkkir Nizami Gəncəvinin həyat və yaradıcılığına həsr olunmuş poeziya günlərinin keçirilməsi artıq ənənə halını alıb. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə həyata vəsiqə qazanan bu işıqlı ideyanın tarixi yarım əsri ötür. Gəncəlilər həmişə olduğu kimi, bu il də Nizami poeziya bayramına ciddi hazırlaşırlar.**

Mədəniyyət Nazirliyindən XQ-yə verilən məlumatda bildirilir ki, sentyabrın 11-dən 15-dək davam edəcək "Nizami günləri" çərçivəsində ölməz şairin həyat və yaradıcılığına həsr olunmuş elmi konfrans, şairin şeirlərindən ibarət "Qiraət axşamı", muğam və romans konserti nəzərdə tutulur. Bundan başqa, "Nizami günləri"nin proqramına Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının rəqs truppasının konserti və Əfrasiyab Bədəlbəylinin "Nizami" operasının nümayişi də daxildir.

Qeyd edək ki, dahi şairin məqbərəsinin önündən start götürəcək Nizami təntənələri Mədəniyyət Nazirliyi və Gəncə




Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə gerçəkləşəcək.

***C.BALABƏY***
***XQ***

# Qədim Şuşa xalçası Vətənə qayıtdı



**Azərbaycan Milli Xalça Muzeyinin günü-gündən zənginləşən kolleksiyasına bir nadir nümunə də əlavə olunub. Bu sənət incisi 1825-ci ildə Şuşada toxunan Qarabağ çeşnili "Açma-yumma" xalçasıdır.**

Almaniyanın Berlin şəhərində yaşayan kolleksiyaçı Hocat Abasinin mötəbər saxlanca dəyərli töhfəsi olan tarixi sənət nümunəsi barədə XQ-yə məlumat verən Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova söylədi:

– Bu əsər naxış əlvanlığı, koloriti və qeyri-adiliyi ilə fərqlənir. Sənətkarlıq nümunəsi həm də kompozisiya, rəng harmoniyası, ornamentlərin zənginliyi ilə seçilir. Xalçanın ara sahəsi, haşiyələri həndəsi, nəbati naxışlar stilizə olunmuş insan və heyvan təsvirləri ilə bəzədilib. Tarixi xalçanın kim tərəfindən toxunduğu məlum deyil.

Yeni eksponat təmənnasız olaraq muzeyə bağışlanıb. Biz bu əsəri muzeyimizin Şuşa filialının ekspozisiyasında saxlayacağıq. Yaxın zamanlarda sənətkarlıq nümunəsini Şuşaya aparacaq, orada təşkil olunacaq xalça kolleksiyalarından ibarət sərgidə nümayiş etdirəcəyik.

Kolleksiyaçı Hocat Abasi də Vətənindən ayrı düşən bu nəfis əsərin öz doğma yurduna qovuşduğundan məmnun olduğunu bildirdi:

– Kolleksiyamda olan xalçalardan biri də "Açma-yumma" idi. Uzun müddət idi ki, bunu Azərbaycana gətirmək barədə düşünürdüm. Ölkə ərazi bütövlüyünü bərpa etdikdən sonra Şuşaya aid olan bu sənətkarlıq nümunəsini vətənə gətirməyim ürəyimcə oldu. Arzu edirəm ki, bu xalça muzeyin Şuşa filialı şəhərə qayıdanda orada sərgilənsin.

Qeyd edək ki, Qarabağ məktəbinə aid "Açma-yumma" xalçalarının istehsal mərkəzləri qədim zamanlardan Ağdamın Xıdırlı, Cəbrayılın Papı və Sofulu kəndləri, olub. XVIII əsrdən etibarən isə bu xalçalar Şuşa, onun Şırlan və Xəlfəli kəndlərində toxunub.

***Ceyhun ALIŞLI***
***XQ***

Günün ağrıları

# Bulaq suyu, dağ havası… Bəs zibilliklər?



**Təəssüf və çox təəssüf ki, bu sətirlərlə "Qız qalası" saytında gördüyüm qısa videolentdəki "ab-havanı" məhz o səviyyədə qələmə ala bilmirəm. Heç başqa həmkarlarımızın da qələmə ala biləcəyinə inanmıram. Sadəcə, dəhşətdir. Mən belə zibilxanaları əks etdirən videoları Paris haqqındakı tənqidi filmlərdə görmüşdüm. Emmanuel Makronun daxili siyasətdə bir nömrəli problemi olan məişət tullantılarının paytaxtdan yığışdırılmamasını dəfələrlə qınamış və gülmüşdüm. İndi sanki Allah bizi cəzalandırır. Həmin natəmizliklərin kiçik variantını Şuşa– Laçın yolunda görmək... ürək ağrısı yaradır.**



Çox arzulayardım ki, "Şuşadan Laçına gedən yol" adlı həmin materialı ermənilər və onlara havadarlıq edənlər görməyəydilər. İndi hansısa separatçı, qarətçi, talançı, yurdumuzu viranəyə çevirmiş Haykaz, Aşot və ya Qurgen deyə bilər ki, əgər o yerləri o günə salacaqdınızsa, nə üçün minlərlə şəhid verdiniz? Hansısa Baqrat şəxsən məndən soruşsa, cavab verə bilmərəm.

Haqqında söz açdığım videoda görünür ki, Şuşadan Laçına gedən yoldakı hansısa bulağın yanında dayanmış avtomobilin sərnişinləri gətirdikləri bəzi qablara bulaq suyu doldururlar. Deməli, bu müqəddəs torpaqlardan kiməsə pay aparacaqlar. Ziyarət yerlərindən qayıdan adamların gətirdiyi belə paylara "tutiyə" deyirdik. Ancaq sərnişinlərin su götürdüyü bulağın ətrafını, hətta, maşın getdikcə videoya çəkilən digər yerləri də görəndə oradan gətirilmiş suya qətiyyən "tutiyə" demək istəməzdim. Çünki göz işlədikcə hər tərəf məişət tullantılarının atıldığı zibilliyə çevrilib.

Bəs hanı bizi işğalçılardan, soyqırımı törətmiş terrorçu və təxribatçılardan fərqləndirən mədəni səviyyəmiz? Otuz il Laçın, Laçın yolu deyəndə ürəyi titrəyən, dodağı çatlayan insanların yurda qayıdış sevincinə beləmi şərik çıxırıq? Vətən torpağının hər qarışı, hər kəsəyi, hər daşı uğrunda "uf" demədən ölümə gedən qəhrəman oğullarımızın, yüz illər boyu unudulmayacaq şəhidlərimizin qanı tökülmüş ərazilərin zibilxanaya çevrilməsinə kimin vicdanı icazə verir?

Biz bu məsuliyyətsizliklərlə – işğaldan azad edilmiş torpaqlarımızı zibilxanaya çevirməklə onlarca anti-Türkiyə, anti-Azərbaycan məramlı beynəlxalq təşkilatın, ölkəmizin müstəqilliyini gözü götürməyən, dövlətimizin qüdrətlənməsini həzm edə bilməyən çoxsaylı siyasi dairələrin qarşısında tək dayanan və bütün addımlarında qalib gəlməyi bacaran müzəffər Ali Baş Komandanımızın "Biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik!" – tezisini beləmi dəstəkləyirik? Məgər cənnətdə bu qədər plastik torbalar, boş su qabları, qarpız qabıqları, kağız dəsmallar (salfetka), köhnə yemək qalıqları ...olur?

Hörmətli oxucular elə bilməsinlər ki, mən bütöv xalqımızı və ya ümumilikdə, cəmiyyətimizi qınayıram. Qətiyyən elə deyil. Qarabağın cənnətə çevrilməsində iştirak edənlərin sayı minlərlədir. Şuşada, Füzulidə, Laçında gözəllik yaradanlar, düşmənin yandırıb viranəyə çevirdiyi torpaqlarımızı gülüstana döndərənlər bu yurd üçün can verənlərin adına layiq fəaliyyət göstərirlər. Mən Şuşada olanda quruculuq işlərində iştirak edən adi fəhləyə də, daş gətirən maşının sürücüsünə də baş əyirdim. "Sən mənim qardaşımsan!" – deyirdim. İndi Laçın yolunu Abşerondakı, Xəzər sahillərindəki bəzi baş gicəlləndirən zibilxanalara çevirmiş soydaşlarıma necə "qardaş" deyə bilərəm?



Bizi narahat edən əsas məsələ Azərbaycana gələn çoxsaylı əcnəbi turist və mətbuat təmsilçilərinin Laçın yolundakı həmin mənzərələri görməsidir. Bilmirəm, onlar ölkəmizdən qayıdandan sonra Azərbaycanda gördükləri barədə nələr yazacaqlar.

Yeri gəlmişkən, son zamanlar ən kiçik dövlətlərdən tutmuş ABŞ-dək bütün dövlətlərin ərazisində baş vermiş hansısa mənfi hala dərhal "Təxribatdır!" – damğası vurmaq tendensiyası yaşanır. Kaş Laçın yolunun o şəkilə salınması da təxribat olaydı. Hələ də özümü inandırmağa çalışıram ki, o "lövhələrin müəllifi" bizim soydaşımız deyil. Bəlkə də, həqiqətən, təxribatdır. Çünki mənim xalqımda o qədər mədəniyyətsizlik, o dərəcədə səviyyəsizlik və o şəkildə qanacaqsızlıq ola bilməz.

Bu yerləri yenidən bizə qaytaran şəhidlərimizə baş əyir, ordumuza güvənir, Ali Baş Komandanımızı daim, hər addımda dəstəkləyirik. Həmin videodakı rüsvayçılığa görə isə şəhid analarından və qazilərimizdən üzr istəyirik.

*İttifaq MİRZƏBƏYLİ*

Beynəlxalq həyat

# Yaxın Şərq: Hərbi qarşıdurma davam edir



**Başıbəlalı Yaxın Şərq yenə odun-alovun içindədir. Qəzza zolağı 10 ay 11 gündür ki, raket zərbələri altındadır. Buradakı inzibati bina və yaşayış evlərinin, məktəb və xəstəxanaların böyük hissəsi dağıdılıb. Qeyri-dəqiq məlumatlara görə, Qəzzada müharibə başlanan gündən bu vaxtadək ölən və yaralanan fələstinlilərin sayı isə 40 mini ötüb. İsrailin də xeyli itkisi var.**

İndi Qəzza sakinlərinin vəziyyəti çox acınacaqlıdır. BMT-nin Fələstin ərazilərindəki Humanitar Məsələlərin Əlaqələndirilməsi İdarəsi məlumat yayıb ki, Qəzzada içməli suyun təmizlənməsi üçün istifadə edilən natrium hipoxlorit ehtiyatı cəmi bir ay kifayət edəcək.

"Əlavə tədarük olmadan, mövcud təchizatın cəmi bir ay kifayət edəcəyi gözlənilir ki, bu da suyun dezinfeksiya edilməsi ilə bağlı ciddi narahatlıq doğurur", – deyə məlumatda xəbərdarlıq edilib.

İsrail Ordusunun əsas hədəflərindən biri də Livanın cənubunda yerləşən Hizbullahdır. Qətərin "Əl-Cəzirə" telekanalı dünən İsrail aviasiyasının Livanın Nəbatiyyə şəhərinə zərbələr endirdiyi barədə görüntülər yayımlayıb. Azı, 10 nəfərin öldüyü bildirilir. Çox sayda yaralılar var.

Hazırda Yaxın Şərqin başqa bir "qaynar nöqtə"si Qırmızı dəniz sayılır. Belə ki, ABŞ, Böyük Britaniya başda olmaqla bir çox Qərb dövlətlərinin aviasiyası öz qırıcı təyyarələrini vaxtaşırı husi terrorçularının gəmilərinə tərəf tuşlayırlar. Məsələn, dünən ABŞ hərbçiləri husilərə məxsus pilotsuz gəmini vurublar. Bu barədə ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) özünün "X" sosial şəbəkəsində məlumat yayıb.

Xatırladaq ki, ötən il oktyabrın 10-da HƏMAS yaraqlılarının İsrail ərazisinə qəfil hücumu bölgədə yeni zorakılıqlar dalğasının başlanmasına səbəb olub. Husilər fələstinlilərə dəstək nümayiş etdirərək 2023-cü ilin noyabrından Qırmızı dəniz və Ədən körfəzində Qərb dövlətlərinin mülki və hərbi gəmilərinə hücum edirlər.

Bu arada ABŞ Prezidenti Co Bayden israillilərlə fələstinlilər arasında keçirilən danışıqların Dohada davam etdiriləcəyini bildirib. Qeyd edib ki, Qətərin baş naziri Məhəmməd bin Əbdül Rəhman Əl Tani və Misir Prezidenti Əbdülfəttah əs-Sisi ABŞ-nin danışıqları davam etdirməsi ilə bağlı təklifinə dəstək ifadə ediblər.

Regiondan atəşkəslə bağlı ara-sıra ümidverici xəbərlər də yayılır. Dünən "The New York Times" qəzeti məlumat yayıb ki, İran və Livanın "Hizbullah" hərəkatı Qəzza zolağında mümkün atəşkəslə əlaqədar Dohada aparılan danışıqlar fonunda öz raket bölmələrinin döyüş hazırlığı səviyyəsini aşağı salıblar.

Nəşr, həmçinin qeyd edir ki, İsrail kəşfiyyat xidmətləri "Hizbullah" və İranın "yumşaldığı" qənaətinə gəliblər. Bununla belə, rəsmi Təl-Əviv Tehranın mümkün zərbələrinin gələcəkdə baş tuta biləcəyini istisna etmir. Təsadüfi deyil ki, İsrail hökuməti kəşfiyyat məlumatlarının daim dəyişdiyini bəyan edir.

Xatırladaq ki, HƏMAS-ın siyasi bürosunun rəhbəri İsmayıl Haniyənin Tehranda və "Hizbullah" lideri Həsən Nəsrullahın baş müşaviri Fuad Şükrün Beyrutda öldürülməsindən sonra Yaxın Şərqdə vəziyyət daha da gərginləşib.

İran və "Hizbullah" qətlə yetirilən şəxslərin qisasını almağa söz veriblər. Bundan sonra bir çox iri aviaşirkətlər bölgəyə uçuşları dayandırmağa başlayıb. ABŞ iqtidarı İranı regionda eskalasiyanı gücləndirməməyə çağırıb. Tehran isə, öz növbəsində, qarşı tərəfi günahlandırır.

*Məsaim ABDULLAYEV*
*XQ*

# İzmirdə güclü yanğınlar

## Güclü külək isə alovun ram edilməsinə mane olur

**Türkiyənin İzmir vilayətində baş verən meşə yanğınları bölgədə əsən güclü küləyin təsiri ilə genişlənərək, təəssüf ki, bir sıra yaşayış yerlərinə çatıb. Belə ki, Qarşıyaka rayonunun Yamanlar məhəlləsində 16 ev yanıb, 87 evin sakinləri təxliyə ediliblər. Yaxınlıqdakı Bayraklı və Çiğli rayonlarında isə 3 məhəllə boşaldılıb. Ümumilikdə, vilayətdə 4 minə yaxın sakin təxliyə edilib.**

Qardaş ölkənin Fövqəladə Halların İdarə Olunması Agentliyindən (AFAD) mediaya verilən məlumatda deyilir ki, İzmir, Aydın, Bolu, Muğla və Manisa vilayətlərində meşə yanğınlarının söndürülməsi istiqamətində gərgin işlər davam edir. xoşbəxtlikdən "can itkisi"nin olmadığını qeyd edib. Bildirib ki, Yunanıstana dəstək üçün Türkiyədən göndərilən təyyarə və helikopterlər artıq ölkəyə qayıdıb və yanğınların söndürülməsi əməliyyatlarında iştirak edir.



Bu bölgələrə, ümumilikdə, 90 aviatexnika, 1218 yanğına qarşı texniki vasitə və 4717 nəfərdən ibarət canlı qüvvə cəlb edilib. Ölkənin digər regionlarındakı aidiyyəti qurumların əməkdaşları bu bölgələrə səfərbər ediliblər.

İzmir valisi Süleyman Elbanın mətbuata açıqlamasında deyilir ki, ərazidə sürəti saatda 80 kilometrə çatan güclü külək dünən sutka ərzində söndürülmə işlərinə mane olub.

İnzibati orqanlar ölkənin şimal–qərb və qərb bölgələrinin böyük bir hissəsini əhatə edən meşə yanğınlarının əsas başvermə səbəblərini araşdırırlar. Türkiyənin kənd və meşə təsərrüfatı naziri İbrahim Yumaklı bu barədə belə bildirib: "Meşə yanğınları ilə bağlı İzmirin Yamanlar məhəlləsində 3 nəfər, Ödəmişdə 2 nəfər, Boluda isə 4 nəfər şübhəli bilinərək nəzarətə alınıb". Nazir İ.Yamaklı, həmçinin 72 yanğından 69-nun artıq nəzarət altına alındığını açıqlayıb: "Hazırda 6 aktiv yanğın var. Onları da tezliklə ram edəcəyik".

Xoşbəxtlikdən ərazidə dünən gecə saatlarında küləyin sürəti azalıb, rütubət isə 10 faizi keçib. Bu yanğınsöndürənlərə odla daha effektiv mübarizə aparmağa imkan verir. İzmirdə 1 min 600 hektar meşə sahəsi gün ərzində nəzarətə götürüləcək. Söndürülmə və soyutma işləri davam edəcək.

Türkiyə Səhiyyə Nazirliyinin məlumatında bildirilir ki, İzmirdəki yanğınlarda 78 nəfər xəsarət alıb, onlardan 29-nun müalicəsi hazırda xəstəxanalarda davam etdirilir.

*P.ƏFƏNDİYEV,*
*Q.QASIMOV*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 176 (30580) 18 avqust 2024-cü il, bazar

## "Liderlik müsabiqəsi"nin liderləri




**Türkiyənin Anadolu Universitetində Beynəlxalq Dostluq Gününə həsr olunan liderlik müsabiqəsinin mükafatlandırılma mərasimi keçirilib.**

Anadolu Universiteti Azərbaycan proqramlarının koordinatoru Azər Hətəmov beynəlxalq müsabiqənin məramı və önəmi barədə məlumat verib. Anadolu Universitetinin rektoru, professor Fuat Ərdal qlobal birliyin gücləndirilməsində liderliyin rolunu vurğulayıb. O qeyd edib ki, Türkiyə və Azərbaycan strateji tərəfdaşlığı regional sabitliyə töhfədir. Təhsil sahəsində əməkdaşlıq isə gələcəyin alimlərini, liderlərini və novatorlarını yetişdirib.

Türkiyə Xarici İqdisadi Əlaqələr Şurasının üzvü, Azərbaycan Türkiyə İş Adamları Birliyi İdarə Heyətinin sabiq sədri, "İstanbul çarşı" şirkətinin təsisçisi Camal Yanğın "Lider iş adamı" nominasiyasının qalibi olub. "İnnovasiya üzrə liderlik" nominasiyasında ADPU-nun dosenti, təhsil eksperti İlham Əhmədov, "Sülh lideri" nominasiyasında tanınmış diploml və İdarəçilik" nominasiyasında "Management Consulting Group" şirkətinin təsisçisi və baş direktoru Samir Novruzov qalib sayılıblar.

*XQ*

## "Real" transfer pəncərəsini bağlayıb



**"Real"ın baş məşqçisi Karlo Ançelotti yay transfer pəncərəsi ilə bağlı gələcək planlarından danışıb. O deyib: "Bizim üçün bazar bağlanıb. Mən başqa heç bir transfer istəməyəcəyəm".**

Qeyd edək ki, "Real" bu yay iki futbolçu ilə müqavilə imzalayıb. Bunlar məşhur fransalı hücumçu Kilian Mbappe və Braziliyanın "Palmeyras" klubundan forvard Endrikidirlər.

"İtkilər"dən söz düşmüşkən qeyd etmək yerinə düşər ki, İspaniya nəhəngindən 6 futbolçu ayrılıb. Belə ki, Rafa Marin, Xuanmi Lataza, Xoselu, Naço Fernandes, Toni Kroos və Kepa Arrizabalaqa müxtəlif səbəblərdən klubu tərk edіblər.

## Messinin villası qanunsuz tikilib?



**Argentinalı futbolçu Lionel Messi İbizadakı villasına boya tökdükləri üçün ətraf mühit fəallarından 50 min avro tələb edib.**

Xatırladaq ki, villanın divarlarına boyanı "Futuro Vegetal" təşkilatının fəalları töküblər. Messi hesab edir ki, indi təşkilat üzvləri ona dəyən ziyanı ödəməlidirlər.

Fəallar villanın qanunsuz tikili olduğunu iddia edirlər.

Messi bu evi 2022-ci ildə 11 milyon avroya alıb. Villanın keçmiş sahibi qarajın bir hissəsini yaşayış sahəsinə çevirmək üçün razılaşdırılmamış iş aparmaqda şübhəli bilinirdi ki, bu da relyefin dəyişməsinə səbəb olub.

**Hazırladı:**
**PÜNHAN**
**XQ**

# Təkliyi tək qalsın...

## Sübh çağının sirli aləmi...

**Qədərimdə ömrün ləpədöyənində bir qaynar yayı doğma yurdda yaşamaq qisməti də varmış... Həmin günlərin mənə verdiyi dərs bu oldu ki, özünü aldada-aldada yaşamaqdan dəhşətli şey yoxdur.**

Dan yerinin firuzəyi-çəhrayı rəngə boyandığı və sübhün sirli, mübhəm anları, əslində, ilahi bir məqamdı. Sanki, dünyanın üzünə bir sirr pərdəsi çəkilib. Və bu sirrin, gizlinin arxasında hansı varlıqsa sənə göz qoyur, hansı hikmətisə başa salmağa çalışır. Sənsə o hikməti ağlın yetdiyi qədər dərk edir, duyur və bu dünyanın faniliyini dönə-dönə xatırlayırsan.

Mən o anlarda tez-tez daş pilləkəndə oturub sonlanmaqda olan gecədə parça-parça yaşadığım yuxunu yozmağa çalışırdım. Yuxu da çox sirli bir şeydi. Görürsən, həsrətində olduğun insanla görüşürsən, söhbətləşirsən və qəfil ayılıb gördüklərinin röya olduğunu nu biləndə göynəyə-göynəyə vurnuxursan...

Böyük insanlardan ibn-Haldun deyir ki, zaman insanın duyğuları ilə ölçülür – gözləyəndə yavaşıyır, gecikəndə sürət alır, üzüləndə canını yandırır, acı çəkəndə bitmək bilmir, darıxanda uzanır, xoşbəxt olanda isə qısalır.

O sərin sübh çağında nədən, haradan başlayıb harayadək "yürüdümsə" nisgil dolu ürəyim mənə bu məlum həqiqəti dönə-dönə xatırlatdı: "ötən günə gün çatmaz..."

Bir azdan dan yeri qızaracaq. Günəşin şəfəqləri dünyanı oyadacaq. Təbiətin ahəngi, səsi dəyişəcək. İnsanlar məhsul dalınca, qarışqalar yem dalınca torpağa səpələnəcək, quşlar bağlara, tarlalara, bostanlara uçacaq. Mən isə Günəş gülümsəyənədək evin həndəvərində işləyəcək, illər əvvəl qaldırılmış şum yerindələklər düzəltməyə, nar ağaclarını suvarmağa çalışacağam.

Bu o məkandır ki, mən tələbə olanda atamgil orada tərəvəz əkmişdilər. Tətil günlərində qardaşlarıma kömək üçün mən də o kiçik bostanda işləyirdim. Bir gün atam becərdiyim tağlara baxıb dedi ki, torpağı çox sevdiyini bilirəm. Heyf ki, oxuyub kənddən çıxacaqsan. Təəssüf ki, atam deyən kimi oldu və ömrümü, nənəmin dediyi kimi, "kağız qaralamaqla" keçirdim...



Sonra hücrəmə çəkilib səhər yeməyimi yeyəcəm. Açıq pəncərədən süzülən günəş şüaları çöhrəmi sığallayacaq, gözlərimə dolacaq... Elə süfrə qarşısında fikir yenə məni çəkib uzaqlara aparacaq. Darıxmamaq üçün gün qızanadək əlimdə ağac uşaqlığım keçən yollara çıxacağam...

Həyətimdə bir dovşan var. Hər gün günəş batandan sonra gəlib evin qarşısındakı işığın altında çömbəlir. Duruşundan, hərəkətlərindən belə başa düşürəm ki, təkdir, mənə sığınıb.

Təklik pis və ağırdı. "Təkliyi tək qalsın görüm dünyada!"

***Səməd MƏLİKZADƏ***

# Ekoloji layihə – "Yaşıl gələcək"

**Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi və "ASAN Könüllüləri" Təşkilatının təşkilatçılığı ilə "Yaşıl gələcək" adlı ekoloji layihə icra olunub. Gənclər Fondu tərəfindən həyata keçirilən "İdeyanı reallaşdır 2023" müsabiqəsinin qalibi Pərviz Səmədovun "Yaşıl gələcək" layihəsində Ağcabədi, Bərdə, Ağdam, Zərdab və Beyləqan rayonlarında yaşayan 20 gənc iştirak edib.**




9 gün davam edən layihənin "İnkişaf proqramı" çərçivəsində iştirakçılar üçün 5 günlük təlim-tədris mərhələsi keçirilib. Bu mərhələ zamanı "Ətraf mühitin qorunması" mövzusunda görüş və Ağcabədi rayonu ərazisindən keçən Qarqar çayının sahilyanı ərazisində təmizlik aksiyası təşkil olunub. "Sahibsiz dostlarımızı qoruyaq" mövzusunda görüş olub və Ağcabədi regional "ASAN xidmət" mərkəzi ilə birgə sahibsiz küçə heyvanları üçün yuvalar yerləşdirilib, yemləmə aksiyası keçirilib.

Layihə çərçivəsində Ağcabədi Olimpiya İdman Kompleksinin fitnes-məşqçisi və fizioterapevti iştirakçılara "Sağlam həyat tərzi və sağlam qidalanma" mövzusunda maarifləndirici məlumat verilib.

Bağlanış mərasimində iştirakçı gənclər və səmərəli fəaliyyətə görə nümayəndələr təltif ediliblər.

***FİDAN***
***XQ***

## Aranda yağmursuz, dağlarda yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 18-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən, yağmursuz keçəcək. Gündüz havanın qısa müddətə tutulacağı ehtimalı var.**

Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 19-24°, gündüz 28-33° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu:

Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 28-33°,



dağlarda gecə 10-15°, gündüz 15-20° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

**Vəhşi təbiət**

## Qarışqa xəritəsi

**Honq-Konq Universitetinin ekoloqları və onların yaponiyalı həmkarları həşəratların – qarışqaların böyük qrupu üçün qlobal biocoğrafi regionların xəritəsini tərtib ediblər. Niyə qarışqaları? Alimlər deyirlər ki, qarışqalar digər həşəratlarla müqayisədə daha çox yayılıblar. Onların kütləsi, son hesablamalara görə, Yerdəki bütün vəhşi quşların və məməlilərin kütləsindən iki dəfə çoxdur. Bundan əlavə, qarışqalar yaxşı sənədləşdirilib, onların, təxminən, 16 min növü məlumdur.**




Nəticədə, ortaya çıxan xəritə dünyada yeganə sayılır və qarışqaların qlobal ərazinin 9 böyük biocoğrafi "krallığa" bölündüyünü göstərir. Maraqlıdır ki, bu, əsasən, bitkilərin paylanması ilə üst-üstə düşür – bütün bunlar yaxın ekoloji və təkamül əlaqələri sayəsindədir. Məsələn, qarışqalar on minlərlə çiçəyin toxumlarının səpələnməsinə kömək edir və çiçəklərin bir çox başqa növlərini ot yeyənlərdən qoruyur. Maraqlıdır ki, onurğalılarda belə bir əlaqə yoxdur.

Qarışqalar barədə daha bir qeyri-adi fakt aşkarlanıb. Bu yaxınlarda isveçrəli "Picotaur" adlı qarışqa ölçüsündə yeni robot yaradıblar. O, qaçmağı, dönməyi, yükləri itələməyi, miniatür pilləkənləri qalxmağı və çətin əldə edilən yerlərə girməyi bacarır.

*XQ*

**Qalaktika**

## Marsda yeraltı okean?

**Marsda aparılan araşdırmalar göstərir ki, təxminən, üç milyard il əvvəl bu planet su ilə dolu olub. Alimlər hələ də Marsın qədim okeanlarında nə baş verdiyini anlamağa çalışırlar.**



Skripps Okeanoqrafiya İnstitutunun, San Dieqo və Berklidəki Kaliforniya Universitetinin (ABŞ) alimləri yeni araşdırmalarında NASA-nın "InSight" Marsa eniş aparatının seysmoloji məlumatlarına əsaslanaraq bu planetin litosfer qatını modelləşdiriblər. Hesablamalar göstərir ki, su planetin səthindən 10-20 kilometr dərinlikdə toplana bilər. Orada temperatur və təzyiq parametrlərinə görə, nəzəri olaraq maye qalmalı və donmamalıdır, onun həcmi isə Marsın bütün səthini bir neçə kilometr dərinlikdə okeanla doldurmağa kifayət edə bilər.

Potensial su yataqlarının dərinliyinə görə, onlara çatmaq qətiyyən mümkün deyil. Lakin bu, tədqiqatçıların Mars sularında da mümkün həyat haqqında nəzəriyyələr qurmasına mane olmur: "Marsda yeraltı su anbarı niyə Yerdəki kimi yaşamaq üçün əlverişli olmasın? Bizim planetdə həyat çox dərin mədənlərdə, okeanların dibində mövcuddur. Hələ Marsda onun heç bir izi tapılmayıb, amma indi onun, prinsipcə, ola biləcəyi yeri bilirik", – Berkli Universitetinin planetoloqu Maykl Manqa deyir.

***S.ELAY***
***XQ***

# Tüstüyə görə cəza

**Sabunçu rayonunda fəaliyyət göstərən zavoddan havaya tüstünün yayılması ilə bağlı sosial şəbəkələrdə yayılmış videogörüntülər araşdırılıb.**

Bu barədə Dövlət Ekoloji Təhlükəsizlik Xidməti məlumat yayıb. Xidmət rəsmisi Qafar Ağayev bildirib ki, araşdırma zamanı sözügedən müəssisənin "17 nömrəli Yol İstismarı" MMC-yə məxsus asfalt zavodu olduğu müəyyən edilib. Zavodda təmizləyici qurğunun quraşdırılmasına baxmayaraq, filtrlərin vaxtında dəyişdirilməməsi səbəbindən havaya tüstünün yayıldığı məlum olub.

Faktla bağlı MMC-yə məsul şəxs Elşad Həsənov barəsində akt, protokol tərtib edilib və o, vəzifəli şəxs qismində cərimələnib.

*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

AMEA Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva və institutun kollektivi şöbə müdiri Zenfira Şıxəlibəyliyə həyat yoldaşı

**ABDUL DADAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3645
SİFARİŞ 1767
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00